HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Vergilər

№ 10 (801) ▪ 10 mart 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Qətər Dövlətinin Əmirinin Azərbaycan Respublikasına rəsmi səfəri

Martın 8-də Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani Azərbaycana səfər edib. Rəsmi qarşılanma mərasimində Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Əmir Şeyx Təmim bin Həməd Al Taniyə, Qətər Dövlətinin nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olunub. Sonra Prezident İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin geniş tərkibdə görüşü keçirilib.



Dövlətimizin başçısı bildirib ki, bu səfər ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərini daha da gücləndirəcək. Azərbaycanla Qətər Dövləti arasında sıx əməkdaşlıq və mükəmməl siyasi münasibətlərimizin mövcud olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev hər iki ölkənin beynəlxalq təşkilatlarda, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında uğurla əməkdaşlıq etdiyini vurğulayıb. Qeyd edib ki, iqtisadi əməkdaşlığımızın səviyyəsini siyasi əməkdaşlıq səviyyəsinə qaldırmalıyıq və bu sahədə çoxlu imkanlar mövcuddur «Bu gün imzalanacaq sənədlərdən biri xüsusilə bunun üçün yaxşı baza yaradacaq. Əminəm ki, birgə komissiyanın yaradılması ölkələrimiz arasında iqtisadi və ticari əməkdaşlığı artıracaq. Enerji əməkdaşlığı, turizm, kənd təsərrüfatı, texnologiyalar, daşımalar və investisiya qoyuluşu sahələrində yaxşı imkanlar görürük. Düşünürəm ki, bütün bu sahələr əməkdaşlıq üçün cəlbedicidir». Azərbaycan Prezidenti bildirib ki, yaxın gələcək üçün ən vacib hədəflərdən biri qarşılıqlı ticarət dövriyyəsinin səviyyəsinin artırılması olmalıdır və bunun üçün yaxşı imkanlar mövcuddur. Eyni zamanda, Qətər vətəndaşlarının Azərbaycana gəlişi üçün sadələşdirilmiş viza rejiminin tətbiqi ziyarətçilərin sayının artmasına səbəb olacaq.

Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani isə bildirib ki, iki ölkə arasında yüksək səviyyədə anlaşma var. Biz münasibətlərimizi xüsusilə iqtisadiyyat və ticarət sahəsində daha da genişləndirməliyik. Eyni zamanda, turizm və mədəniyyət sahəsində də əməkdaşlıq üçün yaxşı imkanların olduğu qeyd edilib.

Görüşdə energetika, sərmayə qoyuluşu, turizm, kənd təsərrüfatı sahələrində əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub, birgə investisiya qoyuluşu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidentinin Qətər Dövlətinin Əmiri ilə təkbətək görüşü olub. Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin inkişafından məmnunluq ifadə edilib, iqtisadi əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulanıb. Bu səfərin münasibətlərimizin daha da möhkəmlənməsinə töhfə verəcəyi diqqətə çatdırılıb. Söhbət zamanı ikitərəfli və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin iştirakı ilə Azərbaycan-Qətər sənədlərinin imzalanması mərasimi olub. «Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qətər Dövlətinin Baş Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə Qətər Dövlətinin Nəqliyyat və Rabitə Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Qətər Dövlətinin Maliyyə Nazirliyi arasında büdcə və maliyyə məsələləri sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu» imzalanıb. Həmçinin, «Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında təhsil, ali təhsil və elmi tədqiqat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Qətər Dövlətinin Ədliyyə Nazirliyi arasında hüquq sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında diplomatik və xüsusi pasportlara malik müvafiq vətəndaşlar üçün viza tələblərinin ləğv edilməsi haqqında Sazişə dəyişikliklər edilməsi barədə Protokol» və «Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın yaradılması haqqında Saziş» imzalanıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin şərəfinə rəsmi ziyafət verilib.

# Azərbaycan-Macarıstan münasibətləri yüksək səviyyədə təmin olunub

Martın 6-da Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Macarıstanın Baş naziri Viktor Orban ilə təkbətək görüşü olub. Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib. Azərbaycan-Macarıstan əlaqələrinin genişləndirilməsi baxımından bu səfərin əhəmiyyəti qeyd olunub, ikitərəfli əlaqələrin müxtəlif sahələrdə inkişafı üçün yaxşı potensialın olduğu vurğulanıb, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



Təkbətək görüş başa çatdıqdan sonra dövlətimizin başçısı İlham Əliyevin və Macarıstanın Baş naziri Viktor Orbanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan ilə Macarıstan arasında ikitərəfli münasibətləri dinamiklik və qarşılıqlı anlaşma fərqləndirir, Baş nazir Viktor Orbanın respublikamıza rəsmi səfəri ölkələrimiz arasında siyasi əlaqələri daha da möhkəmləndirəcək. Səfər zamanı Azərbaycan ilə Macarıstan arasında bir neçə konkret razılaşmanın imzalandığını deyən Prezident İlham Əliyev bu cür razılaşmaların daha çox olacağını düşündüyünü bildirib: «Bizim üçün Macarıstan yaxın, dost dövlətdir və biz istərdik ki, iqtisadi əlaqələr münasibətlərimizin siyasi səviyyəsinə uyğun olsun. Eləcə də kənd təsərrüfatı, energetika, yüksək texnologiyalar sahələrində də yaxşı perspektivlər var. Biz ölkəmizə Macarıstandan investisiyaların yatırılmasında da maraqlıyıq. İstərdik ki, Azərbaycanın özünün maliyyələşdirdiyi layihələrdə daha çox macar şirkətləri iştirak etsinlər».

Baş nazir Viktor Orban qeyd edib ki, ortaq işlərin sayı artığına görə, ildə bir dəfə yüksək səviyyədə görüşlər keçirmək yaxşı olar: «Çünki mən görürəm ki, bizim istənilən görüşümüz həm mədəni, həm də iqtisadi sahələrdəki fəaliyyətimizə təkan verir». Görüşdə, həmçinin, nəqliyyat, energetika, kənd təsərrüfatı, su təchizatı, informasiya-kommunikasiya texnologiyaları, şəhər təsərrüfatı və infrastruktur sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban mətbuata bəyanatlarla çıxış ediblər. Dövlətimizin başçısı Macarıstanın bizim üçün çox yaxın və dost ölkə olduğunu bildirib: «Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Siyasi əlaqələrin yüksək səviyyədə olması bütün başqa sahələrə də müsbət təsir göstərir. Biz beynəlxalq təşkilatlarda uğurla fəaliyyət göstəririk. Macarıstan Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrində çox müsbət və fəal rol oynayır. Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr uğurla inkişaf edir və əminəm ki, gələcəkdə Macarıstan bu əlaqələrin inkişafını daim dəstəkləyəcəkdir».

Prezident İlham Əliyev Macarıstanla Azərbaycan arasında güclü iqtisadi əməkdaşlığın göstəricisi kimi ticarət dövriyyəsinin artmasını, ölkəmizdən ixracın yüksəlməsini qeyd edib, energetika sahəsində əməkdaşlığın daha da dərinləşdiyini vurğulayıb: «SOCAR ilə MOL şirkəti arasında əməkdaşlığın artıq yaxşı tarixi var və bu əməkdaşlıq yeni pilləyə qalxmalıdır. Azərbaycanın enerji siyasəti bu gün Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirilir. Bizim zəngin neft-qaz yataqlarımız var. Bu gün «Cənub» qaz dəhlizi enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi layihəsidir. 3500 kilometr uzunluğunda tikiləcək bu kəmər gələcəkdə Avropanı Azərbaycan ilə daha da sıx birləşdirəcəkdir».

Macarıstanın Baş naziri bəyanatında Azərbaycanın hərtərəfli inkişafının təmin edildiyini və yeni layihələrin icra olunması istiqamətində səmərəli əməkdaşlıq aparıldığını diqqətə çatdırıb. Enerji, nəqliyyat, kənd təsərrüfatı, informasiya texnologiyaları, xidmətlər və biznes sahəsində münasibətlərin daha da güclənəcəyinə və qarşıdakı dövrdə daha ikitərəfli əlaqələrin daha da artacağına əminliyini ifadə edib: «Bizim sonuncu görüşümüzdən sonra ölkələrimiz arasında əməkdaşlıq daha da fəallaşıb. Bu, bir daha onu göstərir ki, biz gərək hər il yüksək səviyyədə görüşləri təşkil edək və bununla həm humanitar, həm iqtisadi sahələrin inkişafına təkan verək. Biz Macarıstana - öz ölkəmizə xalqlarımız arasında dostluğun gücləndirilməsi, iki dövlətin rəhbərləri arasında şəxsi münasibətlərin daha da möhkəmləndirilməsi ümidi ilə qayıdacağıq. Biz istərdik ki, Macarıstan ilə Azərbaycan arasında olan münasibətlər xalqlarımızın mənafelərinə xidmət etsin».

# Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və uğurlar arzulayıram.

Azərbaycan qadınının cəmiyyətimizdə qazandığı yüksək mövqe və elmdə, təhsildə, mədəniyyətdə fəth etdiyi zirvələr bizim tarixi nailiyyətimiz, əbədi qürur mənbəyimizdir. Onun ictimai nüfuzu dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünü vahid məfkurə ətrafında birləşmiş şəkildə qarşılamağa hazırlaşan Azərbaycanın müasir həyatının diqqətəlayiq gerçəkliyidir. Azərbaycan xanımları ülvi amallar naminə zəngin ictimai fəaliyyətləri boyunca özlərinin daxili aləmlərinin ahəngdarlığını həmişə layiqincə qoruyub saxlamış, mürəkkəb sosial-siyasi dəyişikliklərin baş verdiyi ən müxtəlif dövrlərdə cəmiyyətimizin əsl mənəvi dayağı olmuşlar.

İnsan qəlbinin gözəlliklərinin tərənnümçüsü kövrək təbiətli qadın şair və musiqiçilərimizin, xeyirxahlıq, insanpərvərlik rəmzi qadın həkim və müəllimlərimizin adları yaxın keçmişimizin hər bir səhifəsini bəzəyir. Milliliklə müasirliyin vəhdətini mənəviyyatının ayrılmaz tərkib hissəsinə çevirən Azərbaycan qadınının zərifliyi, saflığı və sədaqəti söz, sənət abidələrimizdə əhatəli bədii təcəssümünü tapmışdır. Xalqımızın onun cəmiyyət həyatında yaxından iştirakına münasibətinin nəticəsidir ki, Azərbaycanda qadın hərəkatının görkəmli xadimləri öz dərin zəkalarına, tükənməz potensiallarına güvənərək yeni tarixi şəraitdə böyük müvəffəqiyyətlər qazanmışlar.

İnanıram ki, sürətlə qloballaşan dünyada gənc nəslin çoxəsrlik tarixi-mədəni irsimizə ehtiram, vətənpərvərlik və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda yetişdirilməsi üçün siz bundan sonra da əlinizdən gələni əsirgəməyəcək, bütün gücünüzü, istedad və bacarığınızı ölkənin intellektual-mənəvi sərvətlərinin zənginləşdirilməsi yolunda səfərbər edəcəksiniz.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 mart 2016-cı il.

# Dövlət büdcəsinə dəyişikliklər təsdiq edildi

Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2016-cı il 23 fevral tarixli 129-VQD nömrəli Qanununun tətbiqi və «Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 dekabr tarixli 698 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Fərman imzalamışdır.

2016-cı il üçün dövlət büdcəsinin dəqiqləşdirilmiş gəlirləri 16 milyard 822 milyon manat proqnozlaşdırılır ki, bu da 2016-cı ilin təsdiq olunmuş variantı ilə müqayisədə 2 milyard 256 milyon manat çoxdur. Dövlət büdcəsinin daxilolmalarının tərkibində qeyri-neft sektoru üzrə büdcə gəlirləri isə 7 milyard 597 milyon manat nəzərdə tutulur. Bu, 2015-ci ilin icra göstəricisi ilə müqayisədə 659,2 milyon manat və ya 4,8 faiz çoxdur.

2016-cı ildə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7 milyard 10 milyon manat daxilolma nəzərdə tutulur. Bu da, 2016-cı il üzrə keçən il təsdiq olunmuş əvvəlki proqnozdan 408 milyon manat və ya 6,2 faiz çoxdur.

## BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRİ FAZİL MƏMMƏDOVUN XARİCİ ÖLKƏ SƏFİRLƏRİ İLƏ GÖRÜŞÜ 2
«ASAN XİDMƏT» – AZƏRBAYCANIN BRENDİDİR 2
VERGİ ÖDƏYİCİLƏRİ İLƏ SİLSİLƏ GÖRÜŞLƏR KEÇİRİLİR 3
BƏYANNAMƏLƏRİ GECİKDİRMƏK MƏSULİYYƏT YARADIR 4

# Vergilər naziri Fazil Məmmədovun xarici ölkə səfirləri ilə görüşü



Mart ayının 4-də vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov İsrail Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan Stavı qəbul edib.

Ölkəmizə fövqəladə və səlahiyyətli səfir təyin olunması münasibətilə cənab Dan Stavı təbrik edən F.Məmmədov son illər ərzində əldə olunmuş uğurların əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş iqtisadi siyasətin dayandığını bildirib. Ölkəmizdə multikultural və tolerant mühitin dərin tarixi köklərə malik olduğunu vurğulayan nazir Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin «Multikulturalizm ili» elan edilməsinin təsadüfi olmadığını bildirib. O, Azərbaycanda dini tolerantlığın hökm sürdüyünü qeyd edərək, ölkəmizdə yaşayan müxtəlif xalqların, o cümlədən yəhudi xalqının multikulturalizmin yaratdığı dəyərlərdən bəhrələndiyini deyib.

Sonra vergilər naziri Azərbaycanda reallaşdırılan vergi islahatları, vergi inzibatçılığı və informasiya texnologiyalarının tətbiqi, vergi ödəyicilərinə göstərilən elektron xidmətlər, elektron hökumət quruculuğu və elektron hökumətdən mobil hökumətə keçidlə bağlı Vergilər Nazirliyi tərəfindən aparılan işlər barədə danışıb.

Görüşdən məmnunluğunu ifadə edən səfir Dan Stav ölkəsinin Azərbaycanla əlaqələrə mühüm əhəmiyyət verdiyini, son illər ərzində qarşılıqlı olaraq yüksək səviyyəli nümayəndə heyətlərinin səfərlərinin təşkil olunduğunu, mövcud əməkdaşlığın genişləndirilməsi üçün diplomatik fəaliyyəti dövründə səylə çalışacağını bildirib. İqtisadi və digər sahələrdə partnyorluğun daha da genişləndirilməsinin qarşıya qoyulan prioritet vəzifələrdən biri olduğunu deyən israilli diplomat səfir kimi fəaliyyəti dövründə ikitərəfli və beynəlxalq əməkdaşlıq çərçivəsində münasibətlərin daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini söyləyib. Ölkələrimiz arasında sərmayə qoyuluşu və investisiyaların təşviqi ilə bağlı yeni imkanların açıldığını bildirən səfir son zamanlar bu sahədə qanunvericilikdə mühüm dəyişikliklərin olduğunu diqqətə çatdırıb.

Görüşdə ölkələrimiz arasında iqtisadi, enerji, yüksək texnologiyalar, kənd təsərrüfatı, mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



Həmin gün vergilər naziri Fazil Məmmədov Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçlə də görüşüb.

Qonağı salamlayan vergilər naziri ölkələrimiz arasında yüksək səviyyəli əlaqələrin olduğunu, ikitərəfli münasibətlərin dostluq, əməkdaşlıq və qarşılıqlı yardım prinsipləri əsasında qurulduğunu, Azərbaycan ilə Belarus arasında əlaqələrin bütün sahələrdə dinamik şəkildə inkişaf etdiyini bildirib. Qeyd olunub ki, iki dövlət arasında mövcud olan mehriban münasibətlər ikitərəfli əlaqələrin inkişafına müsbət təsir edir, ölkələrimiz beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəkləyir.

Ölkəmizdə mövcud biznes və vergi mühiti barədə qonağı məlumatlandıran F.Məmmədov Azərbaycanda xarici sərmayəçilər üçün yaradılan əlverişli şərait, investisiya mühitinin cəlbediciliyinin artırılması istiqamətində ölkə Prezidentinin rəhbərliyi altında həyata keçirilən islahatlar barədə danışıb. Bildirilib ki, Azərbaycan xarici sərmayələrin cəlb edilməsi üçün açıq siyasət yürüdür, ölkəmizdə ixrac yönümlü istehsal sahələri dövlət tərəfindən təşviq olunur, sahibkarlığın inkişafına hərtərəfli dəstək verilir. Ölkələrimiz arasındakı əlaqələrin möhkəmləndirilməsi baxımından səfirliyin fəaliyyətini xüsusi qeyd edən nazir iqtisadi tərəfdaşlığın dərinləşdirilməsi istiqamətində səylərin artırılmasının vacibliyini vurğulayıb və qarşıdakı diplomatik fəaliyyəti dövründə yeni səfirə uğurlar arzulayıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən səfir G.Axramoviç Azərbaycan və Belarus arasında ikitərəfli münasibətlərin fəal şəkildə inkişaf etdirilməsi üçün böyük potensial olduğunu vurğulayıb. O, ölkəsinin Azərbaycanla siyasi-iqtisadi əlaqələrin daha da dərinləşdirilməsində maraqlı olduğunu qeyd edib və respublikamızda biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində aparılan işləri yaxından izlədiyini bildirib. Səfir G.Axramoviç qarşıdakı dövrdə ikitərəfli münasibətlərin bütün sahələrdə daha dinamik şəkildə inkişaf etdirilməsi ilə bağlı səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

# «ASAN xidmət» – Azərbaycanın brendidir



*Azərbaycan-Estoniya Ticarət Palatasının rəhbəri, «B.EST solutions» şirkətinin təsisçisi Yana Krimpenin «Vergilər» qəzetinə müsahibəsi*

**- Xanım Krimpe, söhbətə artıq dünya miqyasında tanınmış bu brendin tarixindən başlasaq, qısaca nələri qeyd etməyi vacib bilərdiniz?**

- Azərbaycan Respublikasında vətəndaşlara «bir pəncərə» prinsipi üzrə sosial xidmətlərin göstərilməsinin innovativ konsepsiyasinin yaradılması ideyası bilavasitə cənab Prezident İlham Əliyevə məxsusdur. Bu konsepsiyanı həyata keçirmək məqsədilə 2012-ci ildə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi təsis olunub. Bu düşünülmüş və planlı fəaliyyətin nəticəsi olaraq, hazırda biz dövlət orqanları ilə vətəndaşlar arasında yeni və daha təkmil münasibətlərin qurulmasını təmin edən «ASAN xidmət» mərkəzlərinin inkişafını müşahidə edirik. «ASAN xidmət» mərkəzləri «vahid məkan» prinsipinə əsaslanan, ölkədəki fəaliyyətini yüksək standartlar çərçivəsində quran və inkişaf etdirən dövlət qurumlarındandır. Təsadüfi deyil ki, «ASAN» obreviaturasının açması «AzerbaijanService and Assessment Network», yəni Azərbaycanın qiymətləndirmə və xidmət şəbəkəsi mənasını verir. Məhz bu yanaşma sayəsində «ASAN» hazırda dünyada vətəndaşlara sosial xidmət baxımından ən innovativ yanaşmanı təmin edən nümunə kimi tanınır. Əminliklə deyə bilərəm ki, Azərbaycanın bu sahədə təcrübəsi başqa ölkələrdə yüksək marağa səbəb olur və haqlı olaraq Azərbaycanın vizit kartı hesab edilir.

**- Azərbaycanda «elektron hökumət»dən «mobil hökumət»ə keçidi necə qiymətləndirirsiniz və bu sahədə hansı addımlar atılır?**

- Azərbaycanda «Elektron hökumət» anlayışının yaranmasından uzun müddət keçsə də, bu modelin praktiki tətbiqini «Elektron hökumət» portalının fəaliyyətə başladığı vaxtla əlaqələndirmək düzgün olardı. Azərbaycanda müxtəlif dövlət orqanlarının informasiya sistemlərinin idarələrarası qarşılıqlı əlaqəsini təmin edən və real vaxt rejimində əhalinin kütləvi müraciətlərinin təmin olunmasına imkan verən ümumi istifadəçi platformasının yaradılmasına böyük əmək sərf olunub. Əlbəttə, dövlətin dəstəyi olmadan belə proseslərin təmin edilməsində uğur qazanmaq mümkün deyil. Azərbaycanda bu sahədə dövlət dəstəyi var və bu, təqdirəlayiqdir. Atılan bu addımlar sayəsində hazırda müxtəlif dövlət qurumları tərəfindən vətəndaşlara 400-dən çox elektron xidmət göstərən «Asan imza» kimi elektron identitetin inkişaf etmiş formalarını özündə cəmləşdirən vahid rəqəmsal məkana sahibik.

Lakin zaman dayanmır. Texnologiya aləmi üçün 5 il çox böyük müddətdir. Elektron hökumətin yaradılması başa çatan kimi, mobil texnologiyalar gündəmə gəldi. Elektron eyniləşdirmədən danışarkən qeyd etmək lazımdır ki, müasir texnologiyalar mobil həllər vasitəsilə bu məsələni ən asan və təhlükəsiz formada təmin etməyə imkan verir. Əminliklə qeyd etmək olar ki, Azərbaycan hazırda «elektron hökumət» infrastrukturuna malik ölkələr sırasında aparıcı mövqeyə malikdir və bu, bizim qarşımızda «mobil hökumət»ə keçid üçün geniş imkanlar yaradır. «Mobil hökumət»in aktuallığı mobil avadanlıqların istifadəsinin geniş yayılması və mobil əlaqənin hər yerdə əlçatan olması ilə izah edilir.

**- «Asan imza» xidməti dünya üzrə ən nüfuzlu tədbirlərin birində - «WorldSmartWeek 2015» həftəsində təmsil olunub. Siz həmin tədbirdə «Mobil ID - elektron xidmətlər üçün güclü autentifikasiya aləti» mövzusunda təqdimatla çıxış etmisiniz...**

- İxrac potensialının cəlbediciliyinə görə «Asan imza» texnologiyası vaxtaşırı beynəlxalq tədbirlərdə «Brand of Innovative Azerbaijan» şüarı altında təqdim olunur. Ötən ilin sentyabr ayında «Asan imza» Fransanın Marsel şəhərində keçirilən və elektron/mobil identitet, ünsiyyətsiz xidmətlər, ağıllı infrastruktur həlləri və kibertəhlükəsizlik mövzularına həsr olunmuş «WorldSmartWeek 2015» həftəsində təqdim edildi. Həftə çərçivəsində keçirilən «World e-ID &Cybersecurity» konfransında «Mobil ID - elektron xidmətlər üçün güclü autentifikasiya aləti» mövzusunda təqdimatla çıxış edərək, Azərbaycanda elektron xidmətlərdən istifadənin sadələşdirilməsi və «Asan imza» mobil autentifikasiya və imzalama texnologiyasının köməyi ilə «mobil hökumət» konsepsiyasının tətbiqi sahəsindəki təcrübəsi barədə ətraflı məlumat verdim. Azərbaycanın innovasiyaların tətbiqi sahəsindəki təcrübəsi konfransda iştirak edən digər ölkələrin nümayəndələrində yüksək marağın yaranmasına səbəb oldu.

**- «Asan imza» sistemi İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICECCO) rəhbərliyinin də diqqətini cəlb edib və təşkilata üzv ölkələr arasında standart «elektron imza» kimi istifadə məsələsi müzakirə olunub. Bu sahədə hansı konkret addımlar atılıb?**

- Bu məsələ hazırda fəaliyyətimizin vacib və perspektivli istiqamətlərindən biridir. Xüsusilə inkişaf etmiş elektron və «mobil imza», elektron sənəd dövriyyəsi sistemində transsərhəd platformasının yaradılması üzrə məsələlər nəzərdən keçirilib. ISESCO BESTDOC PORTAL adlandırılan platforma universal alət olan, Azərbaycan mobil və elektron identitet texnologiyaları olan «Asan imza» və «Asan İD» əsasında xüsusi olaraq ISESCO üçün işlənib hazırlanmış ISESCO ID rəqəmsal identitetinin köməyi ilə fəaliyyət göstərəcək və ISESCO-nun üzv dövlətlərinə sənəd dövriyyəsi prosesini sadələşdirməyə və təkmilləşdirməyə yönəlməklə vahid elektron əhatə çərçivəsində hərəkət etmək imkanları təqdim edəcək. Hazırda «B.EST Solutions» şirkəti ISESCO BESTDOC PORTAL layihəsinin texniki tərəfləri üzərində işləyir və pilot layihənin bu il həyata keçirilməsi planlaşdırılır. Hesab edirik ki, ISESCO-ya daxil olan 50-dən çox üzv ölkənin birləşdiyi bu layihənin reallaşması Azərbaycanın innovativ texnologiyalarının dünya miqyasında tanınması baxımından ilk qlobal miqyaslı layihə olacaq.

**- Vergilər Nazirliyinin dövlət xidmətlərinin təmin olunmasında təqdim etdiyi innovasiyaları necə qiymətləndirərdiniz?**

- Mübaliğəsiz demək olar ki, Azərbaycan Respublikasının Vergilər Nazirliyi innovativ həllərin tətbiq olunması sahəsində dövlət orqanları arasında aparıcı mövqe tutur. «Asan imza» xidməti Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) ilə əməkdaşlıq əsasında mobil operatorlar tərəfindən təqdim olunur. Bundan başqa, səmərəli fəaliyyətin nəticəsidir ki, hazırda vergi bəyannamələrinin 90%-dən çoxu elektron formada təqdim edilir. Vergilər Nazirliyi öz fəaliyyəti çərçivəsində elektron xidmətləri uğurla tətbiq edir. Respublika ərazisində vergi ödəyicilərinə xidmət mərkəzləri yüksək səviyyədə fəaliyyət göstərir, bununla yanaşı, nazirlik xidmətin tam səmərəli təşkili üçün vergi ödəyicilərinə İnternet Vergi İdarəsi vasitəsilə də xidmət göstərir. Nazirliyin «195» Çağrı Mərkəzinin fəaliyyətini xüsusi qeyd etmək istərdim. Vergi ödəyicisi istənilən yerdən bu Mərkəzə zəng etməklə «Asan imza» vasitəsilə operatorun köməyi ilə tələb olunan vergi bəyannaməsini doldurub təqdim edə bilər. Bu proses zamanı vergi ödəyicisi operatorun sorğusuna cavab olaraq öz mobil telefonunda «Asan imza» PIN1 kodu ilə şəxsiyyəti təsdiq edir və bəyannamə operator tərəfindən doldurulduqdan sonra öz mobil telefonuna göndərilən «Asan imza» PIN2 kodu ilə hazır bəyannaməni təsdiq edir. Bu funksiya internetə çıxış imkanları məhdud olan, bəyannamələrin göndərilməsində çətinlik çəkən, kompüterlə iş bacarığı olmayan və s. vergi ödəyiciləri üçün ən rahat üsuldur. Bu xidmət beynəlxalq tərəfdaşlarımız arasında da böyük maraq doğurur.

**- Türkmənistan Azərbaycanın «ASAN xidmət» bazasında əhaliyə göstərilən innovativ xidmət modeli ilə yaxından maraqlanır. Bu sahədə vəziyyət nə yerdədir? Bu brendi tətbiq etmək istəyən başqa ölkələr də varmı?**

- «ASAN xidmət» modeli dəfələrlə beynəlxalq təşkilatlar tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində səmərəli alət və «elektron hökumət»in tətbiqi ilə bağlı mühüm addım kimi təqdir olunub. «ASAN xidmət» 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının dövlət xidmətlərinin göstərilməsi sahəsində qaliblərin mükafatlandırılması mərasimində «Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi» kateqoriyasında ən yüksək yerə - 1-ci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif olunub.

Qeyd etmək lazımdır ki, «ASAN» modelinin əhatə dairəsi getdikcə genişlənir və bu, bir çox ölkələrin diqqətini cəlb edir. Bildiyimə görə, Türkmənistandan əlavə, «ASAN xidmət» Belçika, Böyük Britaniya, Serbiya, Fransa, Baltikyanı ölkələr, eləcə də Afrika və Cənubi Amerika ölkələrində keçirilən rəsmi tədbirlərdə də təqdim edilib.

**- «ASAN xidmət»in Azərbaycanda tətbiqinin səmərəliliyi və bu sahədə gözlənilən yeniliklər barədə məlumat verməyinizi istərdik...**

- Bu gün əminliklə demək olar ki, «ASAN xidmət» vətəndaşlara dövlət tərəfindən xidmətin göstərilməsində şəffaflığın və operativliyin təmin olunması baxımından yalnız Azərbaycanda deyil, bütün dünyada ən səmərəli strukturdur. Statistikaya nəzər salsaq görərik ki, 3 il ərzində vətəndaşlar tərəfindən «ASAN xidmət» mərkəzlərinə 8 milyondan çox müraciət daxil olub. Daha öncə qeyd etdiyim kimi, bu mərkəzlərin fəaliyyətinin səmərəliliyi yalnız müraciətlərin sayına görə yox, xidmətlərin təqdim olunmasının daim nəzarətdə saxlanılması ilə də ölçülür. «ASAN xidmət» mərkəzlərinin yaradılmasında məqsəd əhalinin əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, peşəkarlıq səviyyəsinin artırılması, dövlət strukturlarına etimadın daha da gücləndirilməsi, şəffaflığın yüksəldilməsi, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, elektron xidmətlərdən daha geniş istifadə olunması, bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılmasıdır.

Əminəm ki, yaxın gələcəkdə vətəndaşların istifadəsinə daha çox innovativ xidmətlər təqdim olunacaq. Düşünürəm ki, vətəndaşlara xidmətin yeni formasının təşkili mərhələsinin vaxtı yetişib və bu baxımdan, «ASAN mərkəz»lərin böyük rolu var. İstərdim ki, bu mərkəzlərin köməyi ilə vətəndaşlarda özünəxidmət və dövlətlə birbaşa əlaqə xüsusiyyətləri formalaşsın. Bunun üçün «ASAN mərkəz»lərdə özünəxidmət guşəsi yaratmaq olar və məsləhətçinin köməyi ilə vətəndaş xidmətdən özü yaralana bilər. İnanıram ki, həmin şəxs növbəti dəfə Mərkəzə gəlmədən öz kompüteri və mobil telefonu ilə həmin xidmətdən istifadə edə biləcək...

«Elektron hökumət»ə gəlincə, bizim missiyamız çoxsaylı xidmətlərin təşkili yox, vətəndaş üçün xidmətlərin sadələşdirilməsidir. Texnologiyanın yaratdığı geniş imkanlar bunun üçün perspektiv vəd edir. Biz Azərbaycanda bir çox işlər görmüşük və tamamilə yeni, innovativ və vətəndaşın yüksək səviyyədə razı qalacağı mühit yaratmaq üçün əsaslı imkanlar var.

**Dövlət üçün üstün xüsusiyyətləri**

- Onun bazasında mobil texnologiyalara əsaslanan ümummilli elektron identitet mexanizmi qurmağa imkan yaradır.
- «Asan imza» hər bir vətəndaşı daim öz mobil telefonunda daşıya biləcəyi elektron identiet ilə təmin etməyə imkan verir.
- «Asan imza» texnologiyası «elektron hökumət» xidmətlərində mobilliyi təmin edir. İndi vətəndaşlar dünyanın mobil şəbəkələr fəaliyyət göstərən istənilən nöqtəsində elektron xidmətlərdən istifadə edə bilirlər.
- Ən mühüm göstəricilərdən biri də bu və ya digər texnologiyanın istifadəçilər tərəfindən başa düşülmə səviyyəsi ilə bağlıdır. Texnologiya çox mürəkkəb olanda vətəndaşlar ondan kütləvi şəkildə istifadə etmirlər. Mobil telefondan və SİM kartlardan autentifikasiya və imza kimi istifadə etmək isə bütün istifadəçilər üçün daha cəlbedici və əlçatan olur.

**Vətəndaş üçün üstün xüsusiyyətləri**

- «Asan İmza» texnologiyasının ən böyük üstünlüyü yüksək mobilliyi və sadəliyidir.
- Bu texnologiya mobil telefondan tam təhlükəsiz mühitdə autentifikasiya və imza aləti kimi istifadə etməyə imkan yaradır və bununla da geniş çeşidli «elektron hökumət» xidmətlərindən istifadəyə təminat verir.

**- «Asan imza»nın dövlət və vətəndaş üçün üstünlüklərini nədə görürsünüz?**

- «Asan imza» Azərbaycanda mobil rəqəmsal imzalar üzrə yeganə təhlükəsiz həll vasitəsidir. Dövlət üçün cəlbedici xüsusiyyətlərindən biri onun mobil texnologiyalar bazasında milli elektron identitet mexanizminin üzərində qurulması imkanıdır. «Asan imza» hər bir vətəndaşı daim mobil telefonunda daşıya biləcək elektron identitet ilə təmin etməyə imkan verir. Bu isə o deməkdir ki, vətəndaşın istənilən xidmətdən istifadə edə bilməsi üçün Azərbaycan hökuməti istənilən yerdə və vaxtda telefon vasitəsilə hər zaman vətəndaşla birlikdədir.

«Asan imza» texnologiyası «elektron hökumət» xidmətlərində rahatlığı təmin edir. Vətəndaş bunun köməyi ilə mobil əlaqə yaradaraq dünyanın istənilən yerindən dövlət xidmətlərindən faydalanmaq imkanı əldə edir. Bu texnologiyanı önə çıxaran başlıca cəhət isə «smart kart»ın oxunması üçün əlavə qurğuların və proqram təminatının istifadəsinə ehtiyacın olmamasıdır. Xidmətin istifadəsi üçün autentifikasiya və elektron imza rəqəmsal açarlarının saxlanıldığı SIM-karta əsaslanan mobil telefonun olması kifayətdir.

«Asan imza»nın vətəndaşlar üçün üstünlüklərinə gəlincə, ilk növbədə, bu xidmətin insanlar üçün rahatlığını qeyd etmək istərdim. Şəxsi mobil identifikasiya hər zaman istifadəçi ilə birlikdədir və hətta xarici ölkədə olsan belə, kompüter və mobil rabitənin qəbul siqnalı olan bütün yerlərdə istifadə edilə bilər. İstifadəçinin kompüterə kart oxuyucusu daxil etməsinə ehtiyac qalmır, mobil telefon bunu əvəz edir. «Asan imza» öz istifadəçilərinə elektron dövlət xidmətlərinin hər birindən istifadə imkanı verir.

**«Asan imza» statistik göstəricilərdə...**

Azərbaycanda fəaliyyət göstərən mobil operatorlar öz istifadəçilərinə «Asan imza» xidmətini 2014-cü ildən təklif etməyə başlayıblar. Həmin il 124.096 «Asan imza» rəqəmsal sertifikatı verilib. Onların 63.650-si vətəndaşlara fərdi istifadə üçün, 54.425-i hüquqi şəxslərə, 6021-i isə dövlət qulluqçularına təqdim olunub. 2015-ci ildə 45.283 «Asan imza» rəqəmsal sertifikatı verilib ki, onların da 22.703-ü vətəndaşlara, 21028-i hüquqi şəxslərə, 1552-si isə dövlət qulluqçularına təqdim edilib. Bu statistika elektron imza üzrə, müvafiq olaraq, 15.832, 13.820 və 47.532-dir. «Asan imza» istifadəyə verildiyi gündən 194.215 «Asan imza» sertifikatı istifadəçisi tərəfindən 10.066.522 tranzaksiya həyata keçirilib.

*Hazırladı:*
**Ülkər NƏBİYEVA**

# Vergi ödəyiciləri ilə silsilə görüşlər keçirilir

**Vergi sistemi iqtisadi proseslərin əsas iştirakçılarından biridir və ölkəmizdə yaranmış yeni iqtisadi şəraitə uyğun olaraq bu sistemin də işinin günün tələbləri səviyyəsində qurulması üçün yollar axtarılır, proqram səciyyəli tədbirlər həyata keçirilir.**

Vergilər Nazirliyində martın 3-də Bakıda ticarət fəaliyyəti ilə, martın 4-də isə paytaxtda və digər bölgələrdə istehsalat fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə görüşlərin əsas müzakirə mövzuları Vergi Məcəlləsinə edilmiş dəyişikliklər, vergi uçotunun aparılmasında şəffaflığın təmin olunması, vergi ödəyiciləri tərəfindən dövriyyələrin düzgün göstərilməsi və sənədləşdirmə işlərinin qaydaya salınması ilə bağlı olmuşdur.

Vergilər nazirinin müavini, üçüncü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov ticarət sektorunu təmsil edən sahibkarlarla görüş zamanı ölkədə yaranmış yeni iqtisadi şəraitdə sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi barədə ətraflı məlumat vermişdir:

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xüsusi vurğulayıb ki, ölkəmizin bundan sonrakı inkişafı sahibkarlığın inkişafından asılı olacaqdır. Bu gün ticarət şəbəkələrində çalışanlar ölkəmizin vergi daxilolmalarında çox əhəmiyyətli bir hissəsini təmin edirlər. Təkcə ticarət və xidmət sahəsindən büdcəyə vergi daxilolmaları keçən ilin yekunlarına görə 26,8 faiz təşkil edib. Vergilər Nazirliyi olaraq, biz çox maraqlıyıq ki, siz daha rahat işləyib qazanasınız və qazancınızdan da dövlət büdcəsinə vergi ödəyəsiniz.



Bizim hər birimiz ölkədə baş verən iqtisadi proseslərin iştirakçısıyıq. Vergilər Nazirliyi bu gün ticarət şəbəkəsində çalışan insanları: müəssisə rəhbərlərini, sahibkarları, onların mühasiblərini dəvət edib ki, qaranlıq məsələləri sizinlə müzakirə edək, hansı problemlərimiz varsa, onların həlli yollarını axtaraq, birlikdə aradan qaldırılmasına çalışaq.

Ölkə başçısının qoyduğu tələblər nədən ibarətdir? Azərbaycan iqtisadiyyatı, heç bir böhrana baxmayaraq, inkişaf etməlidir və edir. Keçən ilin və bu ilin iki ayının göstəriciləri də bunu sübut edir. Müvəqqəti çətinliklər var. Lakin biz perspektivə, irəliyə baxmalıyıq. Keçən ilin sonlarında Vergi Məcəlləsinə edilən dəyişikliklər vergi inzibatçılığının sadələşdirilməsi, vergi ödəyicilərinin rahatlığının təmin olunması, biznes mühitinin yaxşılaşdırılmasına yönəlmişdir. Konkret olaraq ticarət sahəsini götürdükdə, burada vergi ödəyicilərinə seçim imkanı yaradılıb. Ticarət, eləcə də ictimai iaşə sahəsində çalışan vergi ödəyiciləri satış dövriyyəsi 200.000 manatdan artıq olduğu halda belə, sadələşdirilmiş vergi ödəyicisi ola bilərlər. Seçim, qərar sizindir. ƏDV-nin məqsədləri üçün ərizə vermə öhdəliyini yaradan vergi tutulan əməliyyatların həcmi indi 120.000 manatdan 200.000 manatadək artırılıb. Məcburi ƏDV qeydiyyatına alınmaq öhdəliyi yaradan həddin artırılması dövriyyəsi 200.000 manatadək olan şəxslərə sadələşdirilmiş vergitutma rejimində fəaliyyətlərini davam etdirməyə imkan verir.

Bu gün vergi sistemində qeydiyyatla bağlı heç bir problem yoxdur. Azərbaycan dünyada ən yaxşı vergi inzibatçılığına malik ölkələrdəndir. Çox rahat, cəmi bir neçə dəqiqə ərzində elektron qaydada qeydiyyatdan keçmək mümkündür.

Cənab Prezidentin imzaladığı fərmana əsasən, yoxlamalar 2 il müddətinə dayandırılıb. Yalnız vergi orqanlarına səlahiyyət verilib ki, onlar öz yoxlamalarını davam etdirsinlər. Bu fərmandan sonra vergilər naziri əmr imzaladı ki, dövriyyəsi aşağı olan vergi ödəyicilərində də üç sahə istisna olmaqla qalan vergi yoxlamaları və operativ nəzarət tədbirləri dayandırılsın. Əgər hər bir vergi ödəyicisi öz işini vaxtında görsə, vaxtında bəyannaməsini versə, vaxtında ödəməsini etsə, vergi orqanlarının onun qapısını döyməyə ehtiyac qalmaz. Bu bizə lazım da deyil. Çünki mövcud vergi inzibatçılığı sayəsində hər bir vergi ödəyicisinin fəaliyyətini tam və açıq şəkildə izləmək mümkündür.

Sizdən də bu tələb olunur ki, dövlətin vergisini ödəyəsiniz. Bu, hər birimizin, eləcə də sahibkarların Konstitusiya borcudur. Konstitusiyanın 73-cü maddəsində deyilir ki, vergiləri ödəmək hər kəsin borcudur.

Ölkə başçısının əsas tələblərindən biri budur ki, həm vergi və gömrük orqanları, həm də sahibkarlar şəffaf işləməlidirlər. Ən böyük problem şəffaflığın təmin olunmamasından irəli gəlir. Sizin alıb-satdığınız mal sənədlərdə öz əksini tapmalıdır. Verginizi qaydasında ödəsəniz,




heç kəsin sizinlə işi olmayacaq. Vergi orqanı görəndə ki, xeyli və ya külli miqdarda vergidən yayınma var, təbii ki, tədbir görməyə məcburdur.

Dövriyyə ilə bağlı suallar yaranır. Xronometraj nəzarət tədbiri deyil, gələcək vergi dövriyyəsini dəqiqləşdirmək üçündür. Vergi ödəyicisi vergi orqanı ilə razılaşmırsa, onun istəyi ilə ikinci xronometraj keçirilir. Lazım olsa, üçüncünü də keçirərik, amma təki arada aydınlıq olsun ki, dövriyyə hansı civardadır.

Bu gün şəffaflığın təmin edilməməsində əsas problemimiz sənədlərin qaydasında olmamasıdır. İstehsalçılardan gələn və ya idxal olunan malların sənədləri ilə bağlı bəzən problemlər olur. Yanvarın 1-dən gömrük orqanları da, istehsalçılarımız da göstəriş alıblar ki, sənədsiz mal olmamalıdır. Əgər siz mal idxal edirsinizsə, sizə haradasa sənəd vermirlərsə, bizə müraciət edin. Biz sizin müraciətlərinizi hər zaman dinləməyə hazırıq. Vergi orqanlarına, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz. 195-1 nömrəsinə zəng edib müraciətinizi qeydiyyatdan keçirin. Bütün müraciətlərlə bağlı araşdırma aparılır və nəticəsi dərhal sizə çatdırılır.

Sənədlə işləmək, şəffaf işləmək lazımdır. Mağazaya sənədsiz mal daxil olanda məsuliyyət sizin üzərinizdə olacaq. Burada heç kəsə istisna imkanlar yaradılmayacaq. Bütün ölkələr nəzarət-kassa aparatlarından, POS-terminallardan istifadə edir. İndi nağdsız ödənişlərə daha çox əhəmiyyət verilir. Məsələn, İsveç bütünlüklə nağdsız ödəmə üsulundan istifadə edir. Avropada böhran olsa da, kağız puldan imtina edilir. Burada heç kim itirmir. Bəzən istehsalçı vergilərlə bağlı problemlərini ticarətçinin üzərinə atmağa çalışır. Hər kəs öz işinə görə cavab verməlidir. Kassa aparatları işləməlidir, çeklər vurulmalıdır, qayda-qanunla vergilər ödənilməlidir.

POS-terminallar işlək vəziyyətdə olmalıdır. Bəzən marketlərdə qəribə mənzərə ilə rastlaşırıq. Kassaların üstünə elan yazılır ki, nağdsız ödənişlər üçün, məsələn, 1-ci kassaya yaxınlaşın. Yaxınlaşırsan, nə POS-terminal var, nə də nəzarətçi. Bu, aradan qaldırılmalıdır. Vergi orqanı ticarətçi ilə işini partnyorluq əsasında qurmaq istəyir.

Biz son zamanlar həm səyyar, həm operativ, həm də kameral vergi yoxlamalarının sayını kəskin şəkildə azaltmışıq. Lakin bu o demək deyil ki, hər kəs necə istəyir o cür işləyə bilər. Hamı qanuna tabe olmalıdır. Biz istəyirik ki, şəffaflıq, aşkarlıq şəraitində normal işləyək.

Vergilər nazirinin müşaviri, Bakı Vergilər Departamentinin rəisi vəzifəsini müvəqqəti icra edən Habil Məmmədov diqqəti narahatlıq doğuran konkret faktlara və təmayüllərə yönəltmişdir. Bildirmişdir ki, bu gün bir sıra marketlər şəbəkəsi üzrə dövriyyə bəyannamələrdə 500, ən yaxşı halda 1000 manat göstərilir, satışda olan malların çoxu sənədləşdirilmir. Bu isə o deməkdir ki, faktiki dövriyyə vergidən gizlədilir. İndi mühasiblərin üzərinə böyük məsuliyyət düşür. Ən çox təsadüf olunan səhvlər, nöqsanlar yanvar ayının 1-dən aradan qaldırılmalı idi. Lakin ilin üçüncü ayına qədəm qoysaq da, marketlər şəbəkəsində işçi sayı ilə bəyannamədəki işçi sayı arasındakı fərq aradan qaldırılmayıb.

Təəssüflə qeyd olunmalıdır ki, bəzən qeydiyyatda olan rəsmi kassalar ilə yanaşı, qeydiyyatdankənar kassalardan istifadə olunması hallarına rast gəlinir. Yaxın zamanlarda nəzarət-kassalara aparatlarına məsafədən məlumatötürmə qurğuları əlavə ediləcək və proseslər avtomatik olaraq Vergilər Nazirliyinin bazasında görünəcək.

H.Məmmədov vurğulamışdır ki, müəssisə rəhbərləri qiymət siyasətinə yenidən baxmalıdırlar. Spirtli içkilərin, aksizli malların nağdsız satışı ilə bağlı ilin əvvəlindən tədbir başlanmışdı. Bu vaxtadək artıq qalıqlar qaytarılmalı, qaytarılmayanlar satılmalı idi. Prosesin nəzarətdə saxlanılması üçün yoxlamalar aparılacaq.

Qeyd olunmuşdur ki, qanunvericilikdə edilmiş dəyişikliklə bağlı sadələşdirilmiş vergi, yaxud ƏDV ödəyicisi olmaq seçimi ilə bağlı sahibkarlar arasında çaşqınlıq var. Bildirilmişdir ki, bəzən mühasiblər mal qalıqlarını süni şəkildə çoxaldırlar. Təbii ki, bunun qarşısını almaq üçün təsirli tədbirlər görüləcək. Yeni qaydalar əsasında xronometrajla müşahidələr aparılacaq...

Tədbir zamanı sahibkarların qaldırdıqları məsələlər müzakirə edildi. Qoyulan suallar arasında ən çox aktuallıq kəsb edən məsələlərdən birinin istehsalçılarla ticarət təmsilçiləri arasında münasibətlərlə bağlı olduğu aşkara çıxmışdır.

Martın 4-də Vergilər Nazirliyində Bakıda və ölkənin digər bölgələrində istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə görüş keçirildi.

Vergilər nazirinin müavini Sahib Ələkbərov görüşü açaraq ölkədə yaranmış yeni iqtisadi şəraitdə sahibkarlığın inkişafı, bu sahədə mövcud olan problemlərin həlli yolları ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verdi. Bildirildi ki, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafının prioritet elan edildiyi yeni dönəmdə yerli istehsalın artırılması və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması əsas hədəflərdir. Son aylar bu sahədə həyata keçirilən tədbirlərə toxunan nazir müavini ölkə Prezidentinin müvafiq fərmanı ilə sahibkarlıq sahəsində aparılan yoxlamaların 2 il müddətinə dayandırıldığını, sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının 59-dan 37-yə qədər azaldıldığını, lisenziyaların verilməsi prosedurlarının sadələşdirildiyini, ixrac yönümlü istehsalın stimullaşdırılması və ixrac fəaliyyətinin təşviq edilməsi ilə bağlı konkret tədbirlər görüldüyünü qeyd etmişdir. Son illər ölkədə yaradılmış çoxsaylı müəssisələrə, texnoparklara və müxtəlif istehsal və sənaye obyektlərinə dövlət tərəfindən böyük məbləğdə investisiyalar qoyulmuş, fərdi sahibkarlara kiçik müəssisələrin yaradılması üçün güzəştli kreditlər verilmişdir. Bu addımlara adekvat olaraq, sahibkarlar da işlərini şəffaflıq prinsipləri əsasında qurmalı, vergilərini düzgün hesablayıb dövlət büdcəsinə tam həcmdə və vaxtında ödəməlidirlər. İstehsal müəssisələrinin öz fəaliyyətlərini yeni iqtisadi çağırışlara uyğun və şəffaf şəkildə qurmalı olduqlarını vurğulayan Sahib Ələkbərov bu istiqamətdə görüləcək işlər arasında uçotun düzgün aparılmasının qarşıda duran ən mühüm məsələlərdən olduğunu bildirmişdir.



Nazir müavini bir gün əvvəl ticarət sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri ilə keçirilmiş görüşdə onların bəzi hallarda yerli istehsalçılardan pərakəndə ticarət şəbəkəsində satışa çıxarmaq üçün mal əldə edərkən müvafiq sənəd ala bilmədiklərini söylədiklərini diqqətə çatdıraraq, bu cür halların yolverilməz olduğunu və belə faktlar aşkarlanarsa, vergi orqanları tərəfindən qanunamüvafiq tədbirlər görüləcəyini görüş iştirakçılarının nəzərinə çatdırmışdır. O, vergi ödəyicilərinə dövriyyələrini düzgün göstərməyi və sənədləşdirmə işlərini qaydasına salmağı tövsiyə edərək bildirmişdir ki, bu sahədə hansısa problemlə üzləşən vergi ödəyiciləri lazımi kömək üçün Vergilər Nazirliyinə, Bakı Vergilər Departamentinə, ərazi vergilər idarələri və departamentlərinə, həmçinin müvafiq ərazilərdəki vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Sonda Sahib Ələkbərov və Vergilər Nazirliyinin görüşdə iştirak edən digər rəhbər vəzifəli şəxsləri görüş iştirakçılarının çoxsaylı suallarını cavablandırmışlar.

**Fəxriyyə İKRAMQIZI**

# Vergi Apelyasiya Şurasında

Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentində vergi ödəyicisi kimi qeydiyyatda olan fiziki şəxs Rəhman Məmmədrəhim oğlu Rəhimovun əlavə dəyər vergisi qeydiyyatının və hesablanmış vergi məbləğinin ləğv edilməsi barədə təkrar şikayətinə baxılıb. R.Rəhimov «Konsis» MMC-yə göstərilmiş xidmətin dəyəri ilə bağlı mədaxil qəbzində qeyd olunmuş məbləğin səhvən artıq yazıldığını bildirərək, bununla bağlı təhvil-təslim aktını, mədaxil qəbzinin surətlərini və «Konsis» MMC-nin arayışını təqdim edib və xahiş edib ki, «Əlavə dəyər vergisi ödəyicisinin qeydiyyat» bildirişi, ƏDV hesabatlarının vaxtında təqdim olunmamasına görə tətbiq edilmiş maliyyə sanksiyaları və hesablanmış vergi və faizləri ləğv edilsin.

Araşdırma zamanı R.Rəhimov tərəfindən 2015-ci ilin 2-ci rübü üçün sadələşdirilmiş vergi bəyannaməsi təqdim edildikdən sonra ardıcıl 12 aylıq dövr ərzində vergi tutulan əməliyyatların həcminin 120.000 manatdan artıq olduğu və ƏDV məqsədləri üçün qeydiyyata dair ərizə verilməsi öhdəliyinin yarandığı müəyyən edilib. Vergi ödəyicisi tərəfindən göstərilən müddət ərzində ƏDV məqsədləri üçün qeydiyyata dair müvafiq ərizə təqdim edilmədiyi üçün o, Vergi Məcəlləsinin 157.5-ci maddəsinin tələblərinə uyğun olaraq vergi orqanının təşəbbüsü ilə ƏDV məqsədləri üçün məcburi qeydiyyata alınıb. Bundan sonra kameral vergi yoxlaması ilə 2015-ci ilin 2-ci və 3-cü rübləri üzrə hesablanmış sadələşdirilmiş vergi məbləğləri azaldılaraq əlavə dəyər vergisi hesablanıb və vergi ödəyicisinə «Vergilərin hesablanması barədə» qərarlar göndərilib. ƏDV məqsədləri üçün məcburi qeydiyyata alındıqdan sonra vergi ödəyicisi tərəfindən müvafiq dövrlərə dəqiqləşdirilmiş sadələşdirilmiş vergi bəyannamələri təqdim edilib, həmçinin nağd qaydada aparılan əməliyyatlar barədə təqdim olunmuş kassa sənədlərinin araşdırılması zamanı 30 may 2014-cü il tarixli mədaxil qəbzinə düzəliş edildiyi müəyyən olunub. Bundan əlavə, vergi ödəyicisinə 2015-ci ilin may-oktyabr ayları üzrə əlavə dəyər vergisi bəyannamələrinin müəyyən edilmiş müddətdə verilməməsinə görə maliyyə sanksiyaları da tətbiq olunub.

Vergi ödəyicisinin nümayəndəsi araşdırmaya təqdim etdiyi izahatında 2014-cü ilin may ayında «Konsis» MMC-yə təqdim edilmiş kassa mədaxil qəbzində edilmiş səhvin anlaşılmazlıq nəticəsində baş verdiyini, R.Rəhimovun qeyd edilən ciddi hesabat blankları ilə işləmək təcrübəsinin olmadığını və bununla bağlı müvafiq qanunvericilik aktlarından xəbərsiz olduğunu bildirib.

Vergi Apelyasiya Şurasının iclasında aparılan müzakirələrdə qanunvericiliyin bütün ziddiyyətli və aydın olmayan məqamlarının vergi ödəyicisinin xeyrinə şərh edilməsi, həmçinin sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməsi ilə bağlı müvafiq müddəaların nəzərə alınması, eləcə də təkrar şikayət üzrə işin faktiki halları, gətirilmiş dəlillər və təqdim olunmuş sübutlar əsas götürülməklə, təkrar şikayətin təmin edilməsi barədə qərar qəbul edilib.

# İnvestisiyalarla bağlı güzəştlər bu sahənin inkişafına stimul verir

«İpək Yolu» Sahibkarlığın İnkişafına Dəstək İctimai Birliyi Vergilər Nazirliyinin əməkdaşları ilə sahibkarların görüşünü təşkil etmişdir. Məlumatlandırma məqsədi daşıyan tədbirdə investisiya təşviqi sənədinin alınması qaydaları, bu sənədin əhəmiyyəti və Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı sahibkarlara ətraflı məlumat verilmişdir.

Diqqətə çatdırılmışdır ki, ölkə başçısının 18 yanvar 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş «İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası» Vergi Məcəlləsində və «Gömrük tarifi haqqında» Qanunda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. Bununla bağlı Vergi Məcəlləsinə 2016-cı ilin fevral ayında qüvvəyə minmiş dəyişikliklərə əsasən, investisiya təşviqi sənədini almış fərdi sahibkarlar həmin sənədi aldığı tarixdən əldə etdiyi gəlirin 50 faizi - 7 il müddətinə gəlir vergisindən, hüquqi şəxslər isə həmin sənədi aldığı tarixdən əldə etdiyi mənfəətin 50 faizi - 7 il müddətinə mənfəət vergisindən azad edilir. Bundan başqa, investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı - investisiya təşviqi sənədini aldığı tarixdən 7 il müddətinə ƏDV-dən, eyni zamanda 7 il müddətinə əmlak və torpaq vergisini ödəməkdən azad edilirlər.

Bildirilmişdir ki, investisiya təşviqi sənədi almış şəxs vergi güzəştlərinin tətbiq olunduğu dövrdə investisiya layihəsinə aid olmayan fəaliyyət göstərdikdə, həmin fəaliyyətlə bağlı gəlirlərin və xərclərin uçotunu ayrıca aparmalı və bu fəaliyyətə görə əldə etdiyi gəlirlərdən vergiləri Vergi Məcəlləsi ilə müəyyən edilmiş ümumi qaydada ödəməlidir.

Qeyd olunmuşdur ki, vergi güzəştləri sahibkarlara öz kapital yatırımlarını qısa müddətdə geri almağa, əldə etdikləri gəlirləri yenidən reinvestisiya etməklə fəaliyyətlərini genişləndirməyə əlavə stimul yaradır. Bu isə ölkədə daxili istehsalın artması ilə yanaşı, məşğulluğun təmin edilməsinə və ixrac qabiliyyətinin artımına müsbət təsir göstərir. Vergi Məcəlləsində müəyyən edilmiş güzəştlər biznes mühitinin cəlbediciliyini artırmaqla kənd təsərrüfatı, sənaye, xidmət sektoruna həm daxili, həm də xarici sərmayə cəlbini stimullaşdırmaq baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Bu güzəştlər sonradan bütövlükdə qeyri-neft sektorunun inkişafı ilə nəticələnəcəyindən, perspektivdə vergi daxilolmalarının da artmasına şərait yaradacaq. Regionlarda konkret fəaliyyət sahələrinin təşviqi ilə investisiyanın həcmini müəyyən etməyə imkan verəcək.

Sahibkarların diqqətinə çatdırılmışdır ki, vergi və gömrük qanunvericiliyinə edilmiş dəyişikliklərin əsas məqsədi ölkə iqtisadiyyatına yeni investisiya mənbələrinin tapılması, eləcə də ölkə vətəndaşını öz ölkəsinə investisiya qoymağa təşviq etməkdir.

Görüşün sonunda sahibkarların sualları Vergilər Nazirliyinin əməkdaşları tərəfindən cavablandırılmışdır.

# Bəyannamələri gecikdirmək məsuliyyət yaradır

Vergi ödəyiciləri qanunvericilikdə göstərilən müddətdən gec olmayaraq uçotda olduqları vergi orqanına müvafiq bəyannamə və ya vergi hesabatı təqdim etməlidirlər. Bəyannamənin təqdimetmə (habelə verginin ödənilmə) müddətinin sonuncu günü qeyri-iş gününə düşdüyü halda, növbəti iş günü ərzində təqdim oluna bilər. Vergi Məcəlləsinin 72.2-ci maddəsinə uyğun olaraq, vergi hesabatları vergi ödəyiciləri tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya elektron sənəd formasında) verilə bilər.

Son vaxtlar bəyannamələrin elektron formada təqdim edilməsinə vergi ödəyicilərinin marağı artmışdır. Vergi ödəyicilərinə hesabatların elektron formada təqdim olunması üçün istifadəçi kodu, şifrə və parol olan qapalı zərf təqdim edilərkən, habelə keçirilən brifinq, seminar-məşğələlərdə və digər tədbirlərdə onlara «E-bəyannamə» xidmətinin üstünlükləri, mövcud xidmət növləri barədə məlumatlar verilir və bəyannamələrin tətbiqi proqramından istifadə, elektron formada göndərilməsi qaydaları izah olunaraq, hesabatların elektron vasitələrlə təqdim edilməsi tövsiyə edilir. Hazırda vergi bəyannamələrinin 90%-dən çoxu elektron formada təqdim olunur. Bununla yanaşı, nazirlik xidmətin tam səmərəli təşkili üçün vergi ödəyicilərinə İnternet Vergi İdarəsi vasitəsilə də xidmət göstərir. Vergi ödəyicisi istənilən yerdən «195» Çağrı Mərkəzinə zəng etməklə «Asan imza»dan istifadə edərək operatorun köməyi ilə tələb olunan vergi bəyannaməsini doldurub təqdim edə bilər. Bu proses zamanı vergi ödəyicisi operatorun sorğusuna cavab olaraq öz mobil telefonunda «Asan imza» PIN1 kodu ilə şəxsiyyəti təsdiq edir və bəyannamə operator tərəfindən doldurulduqdan sonra öz mobil telefonuna göndərilən «Asan imza» PIN2 kodu ilə hazır bəyannaməni təsdiq edir. Bu funksiya internetə çıxış imkanları məhdud olan, bəyannamələrin göndərilməsində çətinlik çəkən, kompüterlə iş bacarığı olmayan və s. vergi ödəyiciləri üçün bəyannaməni göndərməyin ən rahat üsuludur.

Vergi hesabatı qanunvericiliklə müəyyən edilmiş hallarda vergi orqanı tərəfindən qəbul olunmadıqda, hesabatın daxil olduğu gündən 3 iş günü ərzində vergi ödəyicisinə aşkar edilmiş dəqiqsizliklərin aradan qaldırılaraq vergi orqanına təqdim olunması barədə bildiriş göndərilir. Vergi Məcəlləsinin 74.1-ci maddəsinə əsasən, hesabatın verilmə müddəti başa çatanadək vergi ödəyicisi gəlir vergisinin və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə müraciət edirsə və bu zaman ödənilməli olan verginin məbləği tamamilə ödənilərsə, hesabatın verilmə müddətinin üç ayadək artırılması mümkündür. Ancaq müddətin uzadılması verginin ödənilməsi vaxtını dəyişdirmir. Hesabat üzrə hesablanmış verginin məbləği ödənilmiş məbləğdən artıq olduqda, yaranan fərq verginin ödənilməsinin son müddəti günündən hesablanan faizlər nəzərə alınmaqla büdcəyə köçürülür, az olduqda isə hesablanmış vergi və faiz məbləğləri azaldılır.

Vergi qanunvericiliyində hesabatın vaxtında təqdim olunmamasına və vergilərin vaxtında ödənilməməsinə və yayındırılmasına görə maliyyə sanksiyalarının tətbiqi edilməsi nəzərdə tutulmuşdur. Belə ki, vergi qanunvericiliyinə əsasən, vergi hesabatının verilməməsi və ya fəaliyyətin olmaması barədə arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisi vergi orqanının qərarına əsasən 40 manat məbləğində cərimələnir. Bundan başqa, vergini hesabatda göstərilən məbləği göstərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin 50%-i miqdarında maliyyə sanksiyası tətbiq olunur. Həmçinin, vergi və ya cari vergi ödəməsi müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz tutulur.

Onu da qeyd edək ki, hesablanmasından və ya tətbiq edilməsindən şikayət edilən verginin, faizlərin və ya maliyyə sanksiyasının məbləği hesablanmaya (tətbiq edilməyə) uyğun şəkildə ödənildiyi halda və şikayətin təmin edilməsi nəticəsində vergi, faizlər və ya maliyyə sanksiyası tamamilə, yaxud qismən ləğv edilərsə, vergi ödəyicisinin kompensasiya və ya həmin məbləğlərə görə faizlər almaq hüququ vardır. Həmçinin, vergi ödəyicisi şikayətə baxılan müddət ərzində maliyyə sanksiyasını ödəməmək hüququna malikdir.

**Rəşad SADIQOV**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

## Əmlak vergisi

***Müharibə veteranıyam. Mənə məxsus olan yaşayış sahəsinə görə əmlak vergisini hansı qaydada ödəməliyəm?***

Vergi Məcəlləsinin (VM) 197.1.1-ci maddəsinə əsasən, rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələri əmlak vergisinin vergitutma obyektidir.

Fiziki şəxslərin əmlak vergisi onların xüsusi mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə bina Bakı şəhərində yerləşdikdə 0,4 manat və həmin dərəcələrə Nazirlər Kabinetinin müəyyən etdiyi 0,7-dən aşağı və 1,5-dən yuxarı olmayan əmsallar tətbiq edilməklə hesablanır (VM, maddə 198.1.1).

VM-in 199.3-cü maddəsində qeyd edilmişdir ki, binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, Vergi Məcəlləsinin 102.2-ci maddəsində göstərilən şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği 30 manat azaldılır.

Bunlarla yanaşı, yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunvericiliyində təsbit olunmuş hədlər daxilində müəyyən edilir. Vergi qanunvericiliyinə uyğun olaraq, bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər (VM, maddə 4.4).

Bələdiyyələr əmlak vergisinin ödənilməsi barədə tədiyyə bildirişini vergi ödəyicilərinə avqustun 1-dən gec olmayaraq verməlidirlər (VM, maddə 200.4).

Cari il üçün əmlak vergisinin məbləği bərabər hissələrlə - həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir. Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtında həmin əmlakın sahibi tərəfindən ödənilir (VM, maddə 200.5).

Fiziki şəxslərdən əmlak vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir (VM, maddə 200.6).

«Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» 2001-ci il 27 dekabr tarixli 244-IIQ nömrəli Qanunun 11.4-cü maddəsinə əsasən, yerli vergi və ödənişlərin ödənilməsi banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçirilir. Bələdiyyələr tərəfindən yerli vergi və ödənişlərin nağd şəkildə qəbul olunması qadağandır.

Qeyd olunan müddəalara əsasən:

Mülkiyyətinizdə olan yaşayış sahəsinə görə əmlak vergisi onun yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən yaşayış sahəsinin 30 kvadratmetrdən artıq olan hissəsinin hər kvadratmetrinə görə Vergi Məcəlləsi ilə müəyyən edilmiş dərəcələrlə hesablanaraq və verginin ödənilməsi barədə tədiyyə bildirişi fiziki şəxslərə çatdırılır. Hesablanmış əmlak vergisinin məbləği fiziki şəxslər tərəfindən banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələrindən istifadə edilməklə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilməlidir.

Binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği 30 manat azaldılır.

# Maliyyə sanksiyalarının tətbiqi qaydaları

Vergi qanunvericiliyi ilə müəyyən olunmuş vəzifələrə əməl etmək hər bir vergi ödəyicisinin borcudur. Lakin müşahidələrin nəticəsi göstərir ki, heç də bütün hallarda vergi ödəyiciləri Vergi Məcəlləsi ilə müəyyən olunmuş vəzifələrinə məsuliyyətlə yanaşmır və vergi qanunvericiliyinin tələblərinə tam əməl etmirlər. Bu da son nəticədə onlara qarşı inzibati cərimə və maliyyə sanksiyalarının tətbiq olunması ilə nəticələnir.

Vergi Məcəlləsində edilmiş son dəyişikliklərdə maliyyə sanksiyalarının tətbiqi ilə bağlı düzəlişlər olunmuşdur.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Samirə Musayeva bu məsələni şərh edərək bildirmişdir ki, Vergi Məcəlləsinə edilən son dəyişikliklər daha çox sosial, vergi inzibatçılığının sadələşdirilməsi, daha geniş təbəqədə vergi ödəyicilərinin vergi yükünün azaldılmasına xidmət edir. Məcəlləyə edilən son dəyişikliklərdə sanksiyaların artırılması yalnız bir halda müşahidə olunur. Bildiyimiz kimi, ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərin dövriyyəsi 200.000 manatdan yuxarı olduqda belə, onlar vergi orqanına müraciət edərək sadələşdirilmiş vergitutma rejimini tətbiqetmə hüququnu özlərində saxlaya bilərlər. Bu isə o deməkdir ki, qanun həmin vergi ödəyicilərinə seçim imkanı verməklə, onlara dövriyyəsini daha da şəffaflaşdırmasına və vergi öhdəliklərini icra etmələrinə münbit şərait yaratmışdır. Yəni 200.000 manatdan yuxarı dövriyyəsi olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan fiziki şəxslər sadələşdirilmiş vergitutma rejimini tətbiq etsələr, onlar ƏDV və gəlir vergisindən azad olunacaqlar. Hüquqi şəxslərsə, hətta dövriyyəsi 200.000 manatdan artıq olduğu halda belə, bu rejimi seçmiş olsalar mənfəət, ƏDV və əmlak vergisindən azad ediləcəklər. Qanunun bu qədər geniş azadolma imkanları verdiyi halda ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövriyyədən yayınmaq üçün nağd hesablaşma qaydalarının pozulması, yəni alğı-satqı və xidmət əməliyyatlarının nəzarət-kassa aparatına vurulmaması və ya malların ciddi uçot blankı olmadan nağd qaydada təqdim edilməsində sanksiyalar sərtləşdirilir. Bu, yalnız dövriyyəsi 200.000 manatdan artıq olan və sadələşdirilmiş vergitutma rejimini seçən ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə şamil ediləcək ki, onlara nağd hesablaşma qaydalarının pozulmasına görə il ərzində birinci dəfə 2000 manat, ikinci dəfə 4000 manat, növbəti dəfələrdə isə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq olunacaqdır. Lakin həmin vergi ödəyicilərinin dövriyyəsi 200.000 manatdan artıq olduqda və normal qaydada əlavə dəyər vergisi ödəyicisi kimi qeydiyyata durmaq rejimini seçdikdə, müvafiq olaraq 400, 800 və 1200 manat maliyyə sanksiyası tətbiq ediləcək.

Ticarət və ictimai iaşədə, eləcə də digər sahələrdə fəaliyyət göstərən və illik dövriyyəsi 200.000 manatdan az olan vergi ödəyicilərinə tətbiq olunan sanksiyaların məbləğləri də yenə əvvəlki kimi, müvafiq olaraq, 400, 800 və 1200 manat təşkil edəcəkdir.

**Fəxriyyə İKRAMQIZI**

# «Pul siyasəti icmalı»nın yeni buraxılışı nəşr olunub

Ötən il qlobal iqtisadi artımın zəifləməsi, dünya əmtəə qiymətlərinin kəskin ucuzlaşması, bir sıra ölkələrdə valyuta ehtiyatlarının azalması və məzənnələrin qeyri-sabitliyi ilə xarakterik olmuşdur. Neftin dünya qiyməti son onilliyin ən aşağı səviyyəsinə enmişdir. Uzunmüddətli xarakter daşıyan xarici şokların güclənməsi milli iqtisadiyyatın dayanıqlığının möhkəmləndirilməsi çağırışlarını daha da aktuallaşdırmışdır.

Mərkəzi Bankın ötən ilin yekunlarına həsr olunan «Pul siyasəti icmalı» nda qeyd edilib ki, yüksək neft qiymətləri dövründə valyuta bazarında yaranmış balansın dəyişməsi və tərəfdaş ölkələrdə baş verən silsilə devalvasiyalar məzənnə siyasətinə və məzənnə rejiminə yenidən baxılması zərurətini yaratmışdır. Məzənnə siyasəti və məzənnə rejimi üzrə tədiyyə balansının tarazlaşdırılmasına, ölkənin strateji valyuta ehtiyatlarının qorunmasına və milli iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsinə xidmət edən qərarlar qəbul olunmuşdur. Müxtəlif amillərin təsiri ilə hesabat ilində inflyasiya birrəqəmli səviyyədə qalmış və ticarət tərəfdaşı ölkələrinin orta inflyasiya göstəricilərindən aşağı olmuşdur.

2015-ci ildə Azərbaycanın xarici sektorunda vəziyyət qlobal iqtisadiyyatda, o cümlədən tərəfdaş ölkələrdə baş verən proseslərin təsiri altında formalaşmışdır. 2015-ci ildə xarici ticarət dövriyyəsi 20,7 mlrd. ABŞ dolları təşkil etmişdir ki, bunun da 11,4 mlrd. ABŞ dolları ixracın, 9,2 mlrd. ABŞ dolları isə idxalın payına düşmüşdür. Xarici ticarət balansının profisiti 2,2 mlrd. ABŞ dolları olmuş, ixrac idxalı 24% üstələmişdir. İl ərzində 165 ölkə ilə ticarət əməliyyatları həyata keçirilmişdir.

Keçən il ölkənin strateji valyuta ehtiyatlarının zəruri həcmdə qorunması təmin edilmişdir. Strateji valyuta ehtiyatlarının ÜDM-ə nisbətinə görə Azərbaycan dünyada ilk yerlərdən birini tutmaqda davam etmişdir.

***İqtisadiyyata investisiya qoyuluşu***

2015-ci ildə ölkə iqtisadiyyatına investisiya qoyuluşu ötən ilə nəzərən 11,1% azalaraq 16 mlrd. manat təşkil etmişdir. Dövr ərzində neft sektoruna 7,2 mlrd. manat, qeyri-neft sektoruna 8,8 mlrd. manat həcmində investisiyalar yönəldilmişdir. İnvestisiyaların həcmi sənayedə 7,8%, informasiya və rabitə sektorunda 2,2 dəfə, daşınmaz əmlakla əlaqədar əməliyyatlar üzrə 29,2%, turistlərin yerləşdirilməsi və ictimai iaşədə 3,8 dəfə artmış, nəqliyyat və anbar təsərrüfatında 11,8%, ticarətdə 60,9%, tikinti sektorunda 5,6% azalmışdır. Qeyri-neft sənayesinin inkişafı üçün ümumi qeyri-neft investisiyalarının 7,7%-i istifadə edilmişdir.

| İnvestisiya mənbələri | 2014 | 2015 |
|---|---|---|
| Müəssisə və təşkilatların vəsaitləri | 9654 | 10615,5 |
| Bank kreditləri | 540,9 | 1299 |
| Büdcə vəsaitləri | 6452,2 | 3005 |
| Büdcədənkənar fondların vəsaitləri | 324,6 | 272.3 |
| Əhalinin şəxsi vəsaiti | 566,9 | 573 |
| Sair vəsaitlər | 77,2 | 192,2 |

***İqtisadi artım qorunub***

İcmalda qeyd edilmişdir ki, ötən illərlə müqayisədə tempin azalmasına baxmayaraq, 2015-ci ildə ölkədə iqtisadi artım qorunmuşdur. 2015-ci ildə ÜDM real ifadədə 1,1% artmış və nominal olaraq 54,4 mlrd. manat təşkil etmişdir.

Qeyri-neft sektorunda 2015-ci il ərzində 37,7 milyard manatlıq əlavə dəyər yaradılmış, onun ÜDM-də xüsusi çəkisi 69,3%-ə yüksəlmişdir.

İstehlak qiymətləri indeksinin komponentləri olan ərzaq qiymətləri orta illik 6,1%, qeyri-ərzaq qiymətləri 3,8%, xidmətlərin dəyəri isə 1,2% dəyişmişdir. Göründüyü kimi, ərzaq qiymətlərinin orta illik inflyasiyanın formalaşmasına töhfəsi digər komponentlər ilə müqayisədə yüksək olmuşdur. İl ərzində çörək məmulatları və yarmalar 10,7%, yağ və piylər 14,3%, meyvələr 6,7%, kofe, çay və kakao isə 12,1% bahalaşmışdır. Tərəvəz məhsullarının qiymətləri isə 4,9% aşağı düşmüşdür.

2015-ci ildə nominal effektiv məzənnə, inflyasiya gözləntiləri və ticarət tərəfdaşlarında yüksək inflyasiya qiymətlərə artırıcı, mövsümi amillər, pul bazası və dünya ərzaq qiymətlərinin dəyişimi isə azaldıcı təsir göstərmişdir.

***Pul siyasəti alətləri***

İcmalda qeyd edilmişdir ki, əvvəlki illərdə olduğu kimi 2015-ci ildə də pul siyasətinə dair qərarların qəbulu zamanı pul siyasətinin həyata keçirilməsi şəraiti və qiymət sabitliyinə nail olma perspektivləri nəzərə alınmışdır. İl ərzində pul siyasəti iqtisadi tsiklik dinamikası, habelə qiymət və maliyyə sabitliyi hədəfləri nəzərə alınmaqla həyata keçirilmişdir.

2015-ci ildə iqtisadi artım, illik (%)




***İnflyasiya məqbul səviyyədə olub***

2015-ci ildə əvvəlki illərlə müqayisədə bir qədər yüksəlsə də, ümumilikdə inflyasiya məqbul səviyyədə qorunmuşdur. DSK-nın məlumatlarına əsasən 2015-ci ildə orta illik inflyasiya 4% təşkil etmişdir ki, bu da son 10 il üzrə orta illik istehlakçı qiymətləri indeksinin dəyişimindən 3,5 faiz bəndi aşağıdır.

İnflyasiyanın məqbul səviyyədə olduğunu nəzərə almaqla qeyri-neft sektorunda iqtisadi artıma maliyyə dəstəyini gücləndirmək, kredit faizlərinin enməsini sürətləndirməklə investisiyaları stimullaşdırmaq, kiçik və orta biznesin maliyyələşməsinin və əhalinin ipoteka kreditləşməsinin dəyərinin optimallaşmasına monetar zəmin yaratmaq məqsədilə 13 iyul 2015-ci il tarixindən etibarən Mərkəzi Bankın uçot dərəcəsi 3,5%-dən 3%-ə endirilmişdir. Faiz dəhlizinin digər parametrlərində isə dəyişiklik edilməmişdir. Belə ki, dəhlizin yuxarı həddi 5%, aşağı həddi isə 0,1% səviyyəsində saxlanılmışdır.

Hesabat ilində pul kütləsinin həcminin və bank sistemində likvidlik səviyyəsinin tənzimlənməsi məqsədilə məcburi ehtiyat normalarından da istifadə olunmuşdur. Pul kütləsinin dəyişimindəki son meyillər nəzərə alınaraq, habelə faiz dərəcələrinin enməsinə şərait yaratmaqla iqtisadi artıma dəstək vermək məqsədilə Mərkəzi Bankın müəyyən etdiyi məcburi ehtiyat norması 2%-dən 0,5%-ə endirilmişdir. 2015-ci ildə manatla pul kütləsinin dinamikası əsasən valyuta bazarında baş verən proseslərin təsiri altında formalaşmışdır. Hesabat ilində manatla pul bazası 40,2% azalaraq ilin sonuna 6 mlrd. 901,8 mln. manat təşkil etmişdir. Pul bazasının həcminə dollarlaşma və hökumət hesabları qalıqlarının dəyişimi azaldıcı, digər amillər isə artırıcı təsir etmişdir. Bank sisteminin pul yaratma qabiliyyətini ifadə edən pul multiplikatorunun səviyyəsində azalma müşahidə olunmuşdur.

İl ərzində manatla geniş pul kütləsi 50,6% azalaraq dövrün sonuna 8 mlrd. 613,1 mln. manat təşkil etmişdir. Geniş mənada manatla pul kütləsi əsasən nağd pul kütləsi hesabına azalmışdır. Bununla belə, 2015-ci il ərzində nağdlaşma göstəricisi 2,78 faiz bəndi azalmışdır. Hesabat ili ərzində geniş pul kütləsi 1.2% azalaraq 21 mlrd. 318.6 mln. manat olmuşdur. Geniş pul kütləsi pul aqreqatının ÜDM-ə nisbəti 2014-cü ildə 36,5% olduğu halda 2015-ci ildə bu rəqəm 39,2%-ə yüksəlmişdir.

2015-ci ildə dollarlaşma səviyyəsi yüksəlmişdir. Xarici valyutada depozitlərin cəmi əmanət və depozitlərdə xüsusi çəkisi ilin sonuna 76,8% təşkil etmişdir.

**AYTƏN**

# Maliyyə bazarlarına nəzarət gücləndiriləcək

## Bu məqsədlə yaradılan Maliyyə Bazarlarına Nəzarət Palatası bir neçə qurumun funksiyasını yerinə yetirəcək

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi ilə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin birgə iclası keçirilib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə ölkə Prezidentinin imzaladığı «Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında» fərmanı barədə bildirib ki, Palata qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları və ödəniş sistemləri fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsi və nəzarəti, bu sahədə şəffaflığın təmin edilməsi məqsədi daşıyır və yeni qurumun yaradılması ilə bağlı bir sıra qanunlara dəyişikliklər günün tələbidir.

Maliyyə Bazarlarına Nəzarət Palatasının fəaliyyətinin təmin edilməsi ilə əlaqədar yaradılmış işçi qrupun rəhbəri Rüfət Aslanlı bildirib ki, indiyədək işçi qrup Palatanın fəaliyyətinin mütərəqqi beynəlxalq prinsip və standartlara uyğun təşkil olunması məqsədilə bu sahədə mövcud olan beynəlxalq standartları araşdırıb. Bu gün müzakirə olunan qanunvericilik aktları zərfi məhz normativ və qanunvericilik xarakterli təkliflərin məcmusudur.

Qeyd olunub ki, Azərbaycanda yenilik olan maliyyə bazarları tənzimləyicisi bir müddətdir həm Qərbdə, həm də Şərqdə geniş tətbiq olunur. Palata kredit təşkilatları, sığorta sektoru, qiymətli kağızlar bazarında lisenziyalaşdırma, tənzimləmə və nəzarət funksiyalarını həyata keçirəcək. Yeni qurum çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət sahəsində dövlət siyasətini də təmin edəcək. Palatanın fəaliyyət dairəsinə daxil olan sahələrdən biri də sistem əhəmiyyəti olmayan ödəniş sistemlərinin (başqa sözlə, klirinq hesablaşma ödəniş sistemləri və ya elektron ödəniş kartları) fəaliyyətinin tənzimlənməsidir.

**Yeni qurum çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət sahəsində dövlət siyasətini də təmin edəcək**

Bu gün mövcud olan qiymətli kağızların ticarəti üzrə klirinq və hesablaşma sistemlərinin fəaliyyətinin tənzimlənməsi hazırda Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən icra edilir, gələcəkdə isə bu funksiya Palatanın mandatına daxil ediləcək.

Maliyyə Bazarlarına Nəzarət Palatası bu sahədə tənzimləmə və nəzarəti həyata keçirmək üçün bir neçə vasitədən istifadə edəcək:

- birincisi, lisenziyalaşdırmadır;
- ikincisi, maliyyə sektorunda norma yaratmaq, normativ xarakterli aktlar qəbul etmək səlahiyyətlərinə malik olacaq;
- üçüncüsü, tənzimləmə subyektləri olan banklar, kredit təşkilatları, sığorta şirkətlərindən və kapital bazarları iştirakçılarından özünün müəyyən etdiyi forma və qaydalarda hesabatlar alacaq. Bu hesabatlar həmin təşkilatların maliyyə vəziyyəti, idarəetmə sistemlərinin effektivliyi barədə davamlı təsəvvürün və təhlillərin formalaşmasına xidmət edəcək;
- dördüncüsü, tənzimlədiyi maliyyə bazarları institutlarının fəaliyyətini yerindəcə yoxlayacaq. Yoxlama prinsipləri və qaydalar isə Palata tərəfindən müəyyən ediləcək;
- nəhayət, beşincisi, tənzimlənmə və nəzarət prosesləri gedişində hər hansı qanun pozuntuları aşkar edilərsə və yaxud maliyyə bazarı subyektlərinin riskli fəaliyyəti aşkarlanarsa, bu zaman təsir tədbirləri və ya sanksiya xarakterli tədbirlər tətbiq olunacaq.

Bildirilib ki, Azərbaycan Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin bütün funksiyaları Maliyyə Bazarlarına Nəzarət Palatasına keçəcək.

R.Aslanlı «Publik hüquqi şəxslər haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında da danışıb. Qeyd olunub ki, publik hüquqi şəxs Azərbaycan qanunvericiliyində yeni bir formadır. Publik hüquqi şəxsin norma yaratmaq hüquqları əldə etməsi üçün hazırda qüvvədə olan Konstitusiya Qanununa əlavələr təklif olunur.

Vurğulanıb ki, yoxlamaları tənzimləyən iki qəbildən olan qanunverici sənədlər var. Lakin bugünkü reallıq göstərir ki, qanunlarda maliyyə sektoru müəssisələrinin yoxlanılması istisna olunur. Bu gün müzakirə olunan qanunvericilik zərfində nəzərdə tutulur ki, Palata gələcəkdə özünün müəyyən etdiyi qaydalar çərçivəsində tənzimləmə subyektlərində yoxlamalar aparacaq. Başqa sözlə, Palatanın yoxlama funksiyaları, prosesləri ümumi qanunvericilikdən ayrılır. Bununla əlaqədar olaraq, ayrı-ayrı sektoral qanunlarda keçid müddəaları nəzərdə tutulub. Ümumiyyətlə, planlaşdırılır ki, Palatanın təşkilatlandırılmasından sonra bütövlükdə maliyyə bazarlarının tənzimlənməsi haqqında ümumi bir qanun hazırlansın.

İclasda Vergi Məcəlləsində, «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında», «Banklar haqqında», «Bank olmayan kredit təşkilatlar haqqında», «Kredit ittifaqları haqqında», «Poçt haqqında», «Sığorta fəaliyyəti haqqında», «Qiymətli kağızlar bazarı haqqında», «İnvestisiya fondları haqqında» qanunların yuxarıda göstərilən məsələlərlə əlaqədar uyğunlaşdırılması ilə bağlı təklif olunan dəyişikliklər barədə izahatlar verilib.

**Rəşad SADIQOV**


AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

## Vergi ödəyicilərinin NƏZƏRİNƏ!

2015›ci hesabat ilinin yekunlar na g r :

✓ G lir vergisinin  d yicil ri olan rezident v  qeyri›rezident fiziki xsl r
g lir vergisinin b yannam sini
✓ M nf  t vergisinin  d yicil ri olan rezident v  qeyri›rezident h quqi
xsl r m nf  t vergisinin b yannam sini
✓ mlak vergisinin  d yicisi olan m  ssis l r  mlak vergisinin b yannam sini cari ilin mart ay n n 31›d n gec olmayaraq

## Mənfəət və gəlir vergisi ödəyicilərinin NƏZƏRİNƏ!

Bildiririk ki, 2015›ci ilin yekununa g r  h quqi  xsl r m nf  t v  mlak vergisi  zr , fiziki  xsl r g lir vergisi  zr  b yannam l rini 31 mart 2016›c  il tarixd n gec olmayaraq vergi orqan na t qdim etm li v  hesablanm  vergil ri h min m dd t d k d vl t b dc sin

Əlavə məlumat üçün «195-1» Çağrı Mərkəzinə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz

Vergilər Nazirliyi


## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycan xam neft hasilatının yanvar ayındakı səviyyədə saxlanılması təşəbbüsünü dəstəkləyir.

Heydər Əliyev adına neft emalı zavodunun yenidənqurma və modernizasiya layihəsinin reallaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində zavod ilə «SOCAR-KBR» birgə müəssisəsi arasında layihənin idarəedilməsi üzrə podratçı müqaviləsi imzalanıb.

Türkiyənin Trabzon şəhərinin iş adamları Azərbaycanın turizm və ticarət sahəsinə sərmayə qoymağı planlaşdırırlar.

Azərbaycan və Macarıstan şirkətləri əməkdaşlığa dair anlaşma memorandumları imzalayıblar.

Azərbaycanla Livan arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığa zəmin yaratmaq üçün anlaşma memorandumlarının imzalanması gözlənilir.

Tbilisidə Azərbaycan istiqraz bazarının təqdimatı keçiriləcək.

# Qeyri-neft ixracını stimullaşdıran tədbirlər

Dövlət başçısının imzaladığı «Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında» fərmanın əsas məqsədi ixracın stimullaşdırılmasıdır. Nazirlər Kabineti və İqtisadiyyat Nazirliyi bir ay müddətində fərmanın tələblərindən irəli gələn məsələlərin həlli ilə bağlı tədbirlər planı hazırlayacaq.

### Sahibkarlara təşviq vəsaiti ödəniləcək

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov fərmanı şərh edərkən bildirib ki, ixrac təşviqinin ödənilməsi qaydası, qeyri-neft məhsullarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə siyahısı və ixrac təşviqinin baza məbləğinə əmsallar tətbiq olunacaq. Əmsallar hazır olduqdan sonra Azərbaycandan digər ölkələrə ixrac edilən qeyri-neft məhsullarına görə təşviq vəsaiti ödəniləcək. Bu vəsaitin məbləği Azərbaycan ərazisində istehsal olunan və istehsal prosesində istifadə edilən yerli komponentlərin və qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisindən, habelə məhsulların növündən asılı olacaq. Təşviq vəsaitinin məbləğinin təxminən 10-20 faiz, hətta bəzi məhsullar üzrə 20 faiz nisbətində olması nəzərdə tutulur.

Fərmanın müddəalarına əsasən, qeyri-neft məhsulları ixrac edən sahibkarlara malın gömrük bəyannamələrində göstərilən dəyərinin 3%-i dövlət vəsaiti hesabına ödəniləcək ki, bu da xərclərin azalmasına imkan verəcək. Beləliklə, sahibkarlar 2016-2020-ci illər ərzində Azərbaycanda istehsal olunan qeyri-neft məhsullarının ixracının təşviqi ilə əlaqədar dövlətdən lazım olan dəstəyi və maliyyə yardımları əldə edəcəklər.

### Yeni bazarların kəşfi üçün maliyyə dəstəyi

İqtisadçı Ruslan Atakişiyev hesab edir ki, ixrac təşviqi siyasəti milli istehsalı və ixracı stimullaşdırmaq üçün beynəlxalq təcrübədə geniş yayılmış strateji tədbirlərdən hesab olunur və ixraca dövlət yardımlarını nəzərdə tutur. Dövlət ixracatçı şirkətlərə xaricə çıxarılacaq yeni bazarlar kəşf etmələrini və ixraclarını artırmalarını stimullaşdırmaq üçün maliyyə dəstəyi verir, onların bir sıra xərclərinin əvəzini ödəyir. İstehsal, keyfiyyət və digər sahələr üzrə mənşə sertifikatların alınması, gömrük, tranzit xərclərinin bir hissəsi dövlət tərəfindən ödənilir. Həmçinin, ixracatçının xarici bazarlarda, ticarət yarmarkalarında və sərgilərdə təmsil olunmasına, dövlətlərarası qarşılıqlı ticarət tərəfdaşlığına, investisiyaların təşviqi və qarşılıqlı qorunmasına dair imzalanmış sazişlərə əsasən, iştirakçı ölkə tərəfindən dəstək göstərilir.

İqtisadçının sözlərinə görə, ixrac qabiliyyətli tanınmış şirkətlərə ixracda bonus sistemi də tətbiq edilir, yəni dövlət tərəfindən onlara müxtəlif formalarda mükafatlar verilir: «Xüsusi statusa malik həmin şirkətlərin banklardan və maliyyə fondlarından güzəştli şərtlərlə kredit almaq imkanları yaranır. İxracın strukturunda xüsusi çəkiyə malik milli istehsalçılara yanacaq, xammal, kommunal xidmətlər üzrə güzəştlər də tətbiq etmək olar. Məsələn, bir sıra sahələrdə istehsalçılara vergi güzəşti tətbiq olunduğu kimi, qaz, işıq və digər kommunal xidmətlərə görə 5 illik güzəşt edilməsi məqsədəuyğundur».

### İxracın təşviqi ilə bağlı güzəştlər

S.Məmmədov vurğulayıb ki, milli ixracatın stimullaşdırılması məqsədilə sahibkarlıq subyektlərinin idxal və ixrac əməliyyatında tələb olunan sənəd və prosedurların sayının azaldılması, ixracdakı hesablamaların sadələşdirilməsi, ixracatçılar üçün daha münasib şəraitin yaradılması nəzərdə tutulur. Qeyri-neft mallarının ixracı ilə bağlı daşınma xərcləri aşağı salınacaq, bu tədbirlərin tərkib hissəsi olaraq dəmir yolu, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında «bir pəncərə» prinsipi tətbiq ediləcək. Artıq Dövlət Gömrük Komitəsi ilə birgə hüquqi və fiziki şəxslərin yüklərinin gömrük sənədləşdirilməsi zamanı zəruri sənədlərin sayının azaldılmasına dair təkliflər hazırlanıb. Hazırda sahibkarların qarşılaşdığı ən böyük problemlərdən biri sertifikatlaşdırmadır və bu istiqamətdə daha rahat bir mexanizmin tətbiqi nəzərdə tutulur. Mənşə və keyfiyyət sertifikatlarının əldə olunmasının asanlaşdırması üçün qanunvericiliyə bəzi dəyişikliklərin edilməsi ilə bağlı məsələlərin yaxın vaxtlarda həlli gözlənilir.

Azərbaycan sahibkarlarının ixrac imkanlarının artmasına xidmət edən ən mühüm layihələrdən biri xarici ölkələrdə logistika mərkəzlərinin yaradılmasıdır. Respublikamız bu tipli ilk layihəni Qazaxıstanın əsas giriş qapılarından olan Aktau şəhərində həyata keçirib. Azərbaycanın ölkədən kənarda yaradılmış ilk logistika mərkəzi Qazaxıstanın biznes şəbəkələrinin cəmləşdiyi ən mühüm ərazidə - xüsusi iqtisadi zonada yerləşir. Bu faktor milli sahibkarlarımızın xarici ölkələrin bazarlarına çıxışı üçün əlavə imkanlar yaradır. Mərkəz vasitəsilə Azərbaycanda istehsal olunan sənaye, kənd təsərrüfatı və ərzaq məhsulları Qazaxıstana, eləcə də regionun digər ölkələrinə çatdırılacaq.

### Milli brendlərin xaricdə tanınması mühüm şərtlərdəndir

Azərbaycanın ixrac potensialının xarici ölkələrə təqdim olunması, milli ixracatın artırılması və investisiyaların Avropa və Asiya regionu dövlətlərinə yönəldilməsi sayəsində ticarət palatalarının fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın indiyədək Avropa, Amerika və Asiya regionu ölkələrinin bir çoxunda ticarət palataları yaradılıb. Həmin qurumların köməyi ilə indiyədək 10-dan artıq ölkədə Azərbaycan məhsullarının təşviqi, ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti barədə görülən işlərlə bağlı tədbirlər keçirilib ki, bu da qeyri-neft məhsullarının ixracının artmasına öz təsirini göstərib. Ticarət palataları ilə yanaşı, potensial ixrac bazarı hesab edilən ölkələrdə Azərbaycan ticarət evlərinin yaradılması da planlara daxildir.

İqtisadiyyat Nazirliyi ixrac qabiliyyətli məhsul istehsal etmək üçün özəl sektorda müasir tələblərə cavab verən və yüksək texnologiyalarla təchiz olunan yeni sənaye və emal müəssisələrinin açılmasının diqqət mərkəzində olduğunu bildirir. Bu məqsədlə dövlət iş adamlarına istehsal yönümlü müəssisələrin açılması üçün güzəştli kreditlərin verilməsi, investisiyaların cəlbinə mane olan bürokratik amillərin aradan qaldırılması, elektron xidmətlərin həcminin genişləndirilməsi ilə əlaqədar tədbirləri də gücləndirəcək.

Dövlət tərəfindən sahibkarlara göstərilən dəstək xarakterli tədbirlərdə əsas hədəf istehsal olunan məhsulun xarici bazarlarda satışının təşkilidir. Azərbaycan məhsullarının potensial ixrac bazarlarının tapılması üçün xarici ölkələrin müvafiq ticarət qurumları ilə əməkdaşlığın intensivləşdirilməsi, qeyri-neft ixrac məhsullarının xaricdə təşviqi və milli brendin təbliği başlıca tədbirlər sırasındadır. Azərbaycanın milli brendinin xaricdə tanıdılması məqsədilə biznesə əlavə kreditlərin verilməsi üçün tədbirlər görüləcək.

**Elbrus CƏFƏRLİ**

# Könüllü əməletmə ilə bağlı məsələlər müzakirə olunub

Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən Macarıstanın paytaxtı Budapeşt şəhərində «Bəyannamə təqdim etməyən şəxslər: könüllü vergi əməletməsini yüksəltmək məqsədilə effektiv həllərin müəyyən edilməsi» mövzusunda seminar keçirilmişdir. Tədbirdə Azərbaycanla yanaşı, Belçika, Bolqarıstan, Çexiya, Danimarka, Almaniya, Yunanıstan, İrlandiya, İtaliya, Latviya, Makedoniya, Moldova, Monteneqro, Norveç, Portuqaliya və İspaniya vergi orqanlarının nümayəndələri iştirak etmişlər. Seminar zamanı mövzuya dair təqdimatlar olmuş, hər bir ölkənin təcrübəsi barədə müzakirələr aparılmışdır.

Tədbirdə Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Bəyannamələr idarəsinin şöbə rəisi Namiq Dərgahov iştirak etmişdir.

# Sintetik uçotun aparılması ilə bağlı yeni qayda

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, bu dəfə Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının 18 yanvar 2016-cı il tarixli Q-02 nömrəli qərarı ilə «Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması Qaydası»na uyğun olaraq, müəssisə və təşkilatlarda tətbiq edilən memorial order formalarının praktik misallar üzərində doldurulmasına diqqət yetirəcəyik.

Misal. 2016-cı ilin yanvar ayında müəssisənin milli valyutada bank hesabına daxil olan və çıxan pulların hərəkəti aşağıdakı kimi olmuşdur:

1). 05.01.2016-cı il tarixdə 14560021 nömrəli bank çıxarış sənədinə əsasən, alıcı «Toto» MMC-dən ona satılmış malların 8000,00 manat dəyəri daxil olmuşdur.

2). 07.01.2016-cı il tarixdə 23320148 nömrəli bank çıxarış sənədinə əsasən sifarişçi «Moti» MMC-dən ona satılacaq mallara görə qabaqcadan 5000,00 manat avans daxil olmuşdur.

3). 07.01.2016-cı il tarixdə 001 nömrəli ödəniş tapşırığı tərtib edilməklə malsatan «Kross» ASC-yə ondan alınmış mal-materialların 6000,00 manat dəyəri köçürülmüşdür.

4). 07.01.2016-cı il tarixdə aparılan köçürmə əməliyyatına görə 30,00 manat bank xidməti haqqı bankın 5774 nömrəli məxaric orderinə əsasən, birbaşa bank hesabından bankın xeyrinə silinmişdir.

5). 14.01.2016-cı il tarixdə 145610 nömrəli kassa mədaxil orderi tərtib edilməklə kassada yığılmış 3000,00 manat nağd pul bank hesabına daxil edilmişdir.

6). 17.01.2016-cı il tarixdə 002 nömrəli ödəniş tapşırığı tərtib edilməklə dövlət büdcəsinə 500,00 manat vergi köçürülmüşdür.

7). 17.01.2016-cı il tarixdə aparılan köçürmə əməliyyatına görə 2,50 manat bank xidməti haqqı bankın 8440 nömrəli məxaric orderinə əsasən, birbaşa bank hesabından bankın xeyrinə silinmişdir.

8). 17.01.2016-cı il tarixdə 003 nömrəli ödəniş tapşırığı tərtib edilməklə «Azərişıq» ASC-yə 200,00 manat istifadə olunmuş elektrik enerjisi haqqı köçürülmüşdür.

9). 17.01.2016-cı il tarixdə aparılan köçürmə əməliyyatına görə 1,00 manat bank xidməti haqqı bankın 9015 nömrəli məxaric orderinə əsasən, birbaşa bank hesabından bankın xeyrinə silinmişdir.

10). 17.01.2016-cı il tarixdə 004 nömrəli ödəniş tapşırığı tərtib edilməklə «Demo» MMC-yə 700,00 manat istifadə olunmuş əmlaka görə icarə haqqı köçürülmüşdür.

11). 17.01.2016-cı il tarixdə aparılan köçürmə əməliyyatına görə 3,50 manat bank xidməti haqqı bankın 9088 nömrəli məxaric orderinə əsasən, birbaşa bank hesabından bankın xeyrinə silinmişdir.

12). 22.01.2016-cı il tarixdə 49662800 nömrəli bank çıxarış sənədinə əsasən, alıcı «Meru» MMC-dən ona satılmış malların 10000,00 manat dəyəri daxil olmuşdur.

13). 22.01.2016-cı il tarixdə 005 nömrəli ödəniş tapşırığı tərtib edilməklə malsatan «Kross» ASC-yə ondan alınmış mal-materialların 4000,00 manat dəyəri köçürülmüşdür.

14). 22.01.2016-cı il tarixdə aparılan köçürmə əməliyyatına görə 20,00 manat bank xidməti haqqı bankın 11310 nömrəli məxaric orderinə əsasən, birbaşa bank hesabından bankın xeyrinə silinmişdir.

15). 29.01.2016-cı il tarixdə 006 nömrəli ödəniş tapşırığı tərtib edilməklə DSMF-yə 800,00 manat sosial sığorta haqqı köçürülmüşdür.

16). 29.01.2016-cı il tarixdə aparılan köçürmə əməliyyatına görə 4,00 manat bank xidməti haqqı bankın 12455 nömrəli məxaric orderinə əsasən, birbaşa bank hesabından bankın xeyrinə silinmişdir.

17). 30.01.2016-cı il tarixdə 007 nömrəli ödəniş tapşırığı tərtib edilməklə işçilərin kart hesablarına 3500,00 manat əməkhaqqı köçürülmüşdür.

18). 30.01.2016-cı il tarixdə aparılan köçürmə əməliyyatına görə 17,50 manat bank xidməti haqqı bankın 12772 nömrəli məxaric orderinə əsasən, birbaşa bank hesabından bankın xeyrinə silinmişdir.

Memorial order formasının A hissəsi aşağıdakı kimi tərtib olunacaqdır:

*"Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq, memorial order forması əsasında sintetik uçotun aparılması Qaydası"na 1 nömrəli əlavə*

______________________________________
*(təşkilatın adı)*

**Memorial order № 2**
**A) Bank əməliyyatları üzrə müxabirləşmələr**
**31 yanvar 2016-cı il**

| Sıra №-si | Əməliyyatlar üzrə ilkin uçot sənədinin | | Əməliyyatı adı | Təsnifat maddəsinin nömrəsi | Sintetik hesabın (subhesabın) nömrəsi | | Məbləğ |
|---|---|---|---|---|---|---|---|
| | tarixi | nömrəsi | | | Dt | Kt | |
| 1 | 05.01.2016 | 14560021 | "Toto" MMC-dən ona satılmış malların dəyəri daxil olub | | 222 | 211 | 8000,00 |
| 2 | 07.01.2016 | 23320148 | "Moti" MMC-dən ona satılacaq mallara görə qabaqcadan avans daxil olub | | 222 | 543 | 5000,00 |
| 3 | 07.01.2016 | 001 | "Kross" ASC-yə ondan alınmış mal-materialların dəyəri köçürülüb | | 531 | 222 | 6000,00 |
| 4 | 07.01.2016 | 5774 | Aparılan köçürmə əməliyyatına görə bank xidməti haqqı silinib | | 538 | 222 | 30,00 |
| 5 | 14.01.2016 | 145610 | Kassada yığılmış nağd pul bank hesabına daxil edilib | | 222 | 221 | 3000,00 |
| 6 | 17.01.2016 | 002 | Dövlət büdcəsinə vergi köçürülüb | | 521 | 222 | 500,00 |
| 7 | 17.01.2016 | 8440 | Aparılan köçürmə əməliyyatına görə bank xidməti haqqı silinib | | 538 | 222 | 2,50 |
| 8 | 17.01.2016 | 003 | "Azərişıq" ASC-yə istifadə olunmuş elektrik enerjisi haqqı köçürülüb | | 538 | 222 | 200,00 |
| 9 | 17.01.2016 | 9015 | Aparılan köçürmə əməliyyatına görə bank xidməti haqqı silinib | | 538 | 222 | 1,00 |
| 10 | 17.01.2016 | 004 | "Demo" MMC-yə istifadə olunmuş əmlaka görə icarə haqqı köçürülüb | | 535 | 222 | 700,00 |
| 11 | 17.01.2016 | 9088 | Aparılan köçürmə əməliyyatına görə bank xidməti haqqı silinib | | 538 | 222 | 3,50 |
| 12 | 22.01.2016 | 49662800 | "Meru" MMC-dən ona satılmış malların dəyəri daxil olub | | 222 | 211 | 10000,00 |
| 13 | 22.01.2016 | 005 | "Kross" ASC-yə ondan alınmış mal-materialların dəyəri köçürülüb | | 531 | 222 | 4000,00 |
| 14 | 22.01.2016 | 11310 | Aparılan köçürmə əməliyyatına görə bank xidməti haqqı silinib | | 538 | 222 | 20,00 |
| 15 | 29.01.2016 | 006 | DSMF-yə sosial sığorta haqqı köçürülüb | | 522 | 222 | 800,00 |
| 16 | 29.01.2016 | 12455 | Aparılan köçürmə əməliyyatına görə bank xidməti haqqı silinib | | 538 | 222 | 4,00 |
| 17 | 30.01.2016 | 007 | İşçilərin kart hesablarına əməkhaqqı köçürülüb | | 533 | 222 | 3500,00 |
| 18 | 30.01.2016 | 12772 | Aparılan köçürmə əməliyyatına görə bank xidməti haqqı silinib | | 538 | 222 | 17,50 |
| | | | **CƏMİ** | | | | **41778,50** |

Memorial order formasının B) hissəsi (əməliyyatlar üzrə qruplaşdırılmış müxabirləşmələrin cəmi məbləğləri) aşağıdakı kimi tərtib olunacaqdır:

| Sıra №-si | Sintetik hesabın (subhesabın) nömrəsi | | Məbləğ |
|---|---|---|---|
| | Dt | Kt | |
| 1 | 222 | 211 | 18000,00 |
| 2 | 222 | 221 | 3000,00 |
| 3 | 222 | 543 | 5000,00 |
| 4 | 521 | 222 | 500,00 |
| 5 | 522 | 222 | 800,00 |
| 6 | 531 | 222 | 10000,00 |
| 7 | 533 | 222 | 3500,00 |
| 8 | 535 | 222 | 700,00 |
| 9 | 538 | 222 | 278,50 |
| **Qruplaşdırılmış müxabirələşmələr üzrə yekun məbləğ** | | | **41778,50** |

Memorial order formasının C) hissəsi (qruplaşdırılmış müxabirləşmələrə əsasən sintetik hesablar (subhesablar) üzrə cəmi dövriyyələr) aşağıdakı kimi tərtib olunacaqdır:

| Sıra №-si | Sintetik hesabın (subhesabın) nömrəsi | Dt | Kt |
|---|---|---|---|
| 1 | 211 | | 18000,00 |
| 2 | 221 | | 3000,00 |
| 3 | 222 | 26000,00 | 15778,50 |
| 4 | 521 | 500,00 | |
| 5 | 522 | 800,00 | |
| 6 | 531 | 10000,00 | |
| 7 | 533 | 3500,00 | |
| 8 | 535 | 700,00 | |
| 9 | 538 | 278,50 | |
| 10 | 543 | | 5000,00 |
| **Qruplaşdırılmış sintetik hesablar (subhesablar) üzrə yekun dövriyyələr** | | **41778,50** | **41778,50** |

Hörmətli oxucular, ikili yazılışların verilməsində müəyyən fərqli yanaşmalar ola bilər və bu, qəbuledilləndir. İzahların verilməsində əsas məqsəd Memorial order formasının doldurulmasının açıqlanmasıdır.

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

İlham İsmayıl oğlu Gözəlovun təsis etdiyi «BTZ-2012» və «Staples-F» MMC-lər tikinti materiallarının alğı-satqısı ilə məşğul olub. Lakin hər ikisi müəssisədə vergi-mühasibat işləri ilk gündən düzgün qurulmadığından vergi orqanı əməkdaşlarının apardıqları səyyar vergi yoxlaması zamanı vergidən yayınma halları aşkar edilib. «BTZ-2012» MMC-də 3623,46 manat, «Staples-F» MMC-də isə 3611,64 manat məbləğində sadələşdirilmiş verginin dövlət büdcəsinə ödənilməkdən yayındırılması faktı üzrə toplanmış materiallar əsasında Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən CM-in 213.1-ci maddəsi ilə iki cinayət işi açılıb. Aparılmış istintaq tədbirlərinin nəticəsi olaraq, hər iki cinayət işinin istintaqı bir icraatda birləşdirilərək davam etdirilib. Təqsirləndirilən şəxs İlham Gözəlov barəsində «Polisin nəzarəti altına vermə» qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə aparılmış istintaqla müəyyən edilib ki, İ.Gözəlov Bakı şəhərində fəaliyyət göstərən «BTZ-2012» və «Staples-F» MMC-lərin fəaliyyətinə rəhbərlik etdiyi dövrdə həmin müəssisələrin nizamnamələrini kobud şəkildə pozub, maliyyə-təsərrüfat fəaliyyətinin uçotunun aparılması vəzifəsini öz üzərinə götürüb və vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsi əməliyyatlarında ciddi qanunsuzluqlara yol verib. Vergi Məcəlləsinin 16.1.1, 16.1.3, 16.1.6, 16.1.7, 72, 78.1, 98, 220 və 221-ci maddələrinin tələblərini pozan sahibkar təqdim etdiyi bəyannamələri saxtalaşdırıb, iki müəssisə üzrə 7235,10 manat məbləğində sadələşdirilmiş vergini dövlət büdcəsinə ödəməkdən yayındırıb.

İş üzrə təqsirləndirilən şəxs qismində istintaqa cəlb olunmuş sahibkar ona qarşı elan edilmiş ittihamla özünü təqsirli bilərək rəhbəri olduğu MMC-lərin fəaliyyətindən əldə edilən pulları təkbaşına mənimsədiyini göstərib.

Bakı şəhəri Nizami Rayon Məhkəməsində keçirilən məhkəmə baxışı zamanı dövlət büdcəsindən yayındırılmış vəsaiti tamamilə ödədiyinə görə, İlham İsmayıl oğlu Gözəlov cinayət məsuliyyətindən azad edilib və barəsində açılmış cinayət işinin icraatına xitam verilib.

Əziz oxucular, bu ibrətamiz faktı diqqətinizə çatdırmaqla bir daha vurğulamağı lazım bilirik ki, bəzən sahibkarın özünə xırda görünən səhlənkarlıq, yaxud qanunla hesablaşmamaq əvvəl-axır onu müttəhimlər kürsüsünə qədər müşayiət edir. Bundan qurtulmağın ən asan və doğru yolu isə vergi öhdəliklərinə vaxtında və tam əməl etməkdir.

**ELBRUS**

vergi təqvimi

| MART | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | **20** |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | **27** |
| **28** | 29 | 30 | **31** | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

28 mart - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1», «10.2» və «10.3».
31 mart - «1», «2» və «5».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb edilən gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcəsi ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə):** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməyə borcludurlar.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir. Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına təqdim etməyə borcludur.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panoram

# Avropada elektron siqaretə aksiz tətbiq etmək gündəmdədir

Avropa İttifaqına daxil olan ölkələr 2017-ci il üçün müvafiq qanunvericilik təklifinin hazırlanması barədə razılığa gəlmişlər. Razılığa görə, elektron siqaret üçün aksizin adi siqaretlərə tətbiq olunan aksizlə eyni sxemə əsasən müəyyənləşdiriləcəyi ehtimal edilir.

Bu məsələnin müzakirə edildiyi görüşün nəticələrinə həsr olunmuş sənəddə bildirilmişdir ki, elektron siqaret, eləcə də bu qəbildən olan «yeni məhsullar» gələcəkdə də aksiz vergisindən azad edilsələr, vahid bazarda uyğunsuzluq və qeyri-müəyyənlik yarana bilər.

Qeyd olunmuşdur ki, əgər «bu məhsulların bazardakı payı artmağa meyil göstərərsə», yeni vergi rejimi ilə bağlı aparılan işlər fəallaşdırılmalıdır.



## qalmaqal

# HSBC bankı çirkli pulların yuyulmasına qarşı mübarizə aparmır

ABŞ hökuməti HSBC bankını maliyyə cinayətkarlığına qarşı mübarizə sahəsində kifayət qədər səy göstərməməkdə ittiham etmişdir. Çirkli pulların yuyulması ilə bağlı dörd il bundan əvvəl baş vermiş qalmaqaldan sonra ABŞ hökuməti bu banka özünün rəsmi müşahidəçisini təyin etmişdi. Böyük Britaniyanın ən nəhəng bankı olan HSBC-nin 2015-ci il üzrə hesabatında bankın 13,2 milyard funt sterlinq (29 milyard manat) gəlir əldə etdiyi göstərilmişdir və qeyd olunmuşdur ki, müşahidəçi bankın çirkli pulların yuyulmasına qarşı tədbirləri sərtləşdirmək sahəsində irəliləyiş etdiyini təsdiqləməkdən imtina etmişdir. Müşahidəçi isə öz hesabatında standartların təkmilləşdirilməsi üzrə aparılan islahatlardan «ciddi narahatlıq» keçirdiyini bildirmişdir.

Hesabatda bankın icraçı direktoru Stüart Qulliverin maaşının azaldılaraq 7,3 milyon funt sterlinqə (16 milyon manata) salındığı da qeyd olunmuşdur. Bundan əlavə, sənəddə bankın gəlirləri haqqında açıqlama verilmişdir: 2015-ci ildə HSCB nin gəlirində cəmi 1% artım olmuşdur ki, bu da daha az cərimə və müştərilərə daha az kompensasiya ödənilməsi ilə izah edilir. Bank öz hesabatında göstərmişdir ki, onun 264 min əməkdaşından 453-nün əməkhaqqı 1 milyon avrodan (1,71 milyon manatdan) çox olmuşdur.

# BVF Böyük Britaniyaya əmlak vergisi üzrə islahat aparmağı tövsiyə edib

Beynəlxalq Valyuta Fondunun Böyük Britaniya üzrə 2015-ci ilin yekunlarına həsr olunmuş hesabatında dolaşıqlıq yaradan vergi xərclərini (məsələn, ƏDV-nin qeyri-standart sıfır dərəcəsi) qaydaya salmaq, vergi rejiminin səmərəliliyini artırmaq, vergi neytrallığını gücləndirmək, infrastruktura çəkilən xərclər də daxil olmaqla gəlirləri vergidən azad etmək tövsiyə edilmişdir.

Hesabatda qeyd olunmuşdur ki, əmlak vergisində islahat aparılması mənzil çatışmazlığı problemini asanlaşdıra bilər. Fond əmlak alğı-satqısına vergi yükünü azaltmaqla yanaşı, əmlakın qiymətinə əsaslanan yığımların artırılmasını da tövsiyə etmişdir. Tövsiyələr arasında tək yaşayan sakinlərə məxsus əmlaka vergi güzəştinin ləğv edilməsi də var.

BVF-nin hesabatında göstərilmişdir ki, borclara münasibətdə vergi yığımındakı fərqin azaldılması maliyyə sabitliyinə şərait yarada bilər.

# Böyük Britaniya vergi sazişləri üzrə liderdir

«The Guardian» nəşri «ActionAid» təşkilatının araşdırmasını təqdim etmişdir. Araşdırma zamanı müəyyən olunmuşdur ki, Böyük Britaniya dünyanın bir sıra ən yoxsul ölkələri ilə vergi sazişlərinin sayına görə öndədir. Həmin sazişlər Böyük Britaniyaya kasıb ölkələrdən milyonlarla vergi gəliri əldə etməyə imkan verir. Böyük Britaniyanın 1970-ci ildən başlayaraq Afrika və Asiya ölkələri ilə imzaladığı sazişlərin siyahısı dərc olunmuşdur. Bu sazişlərin 13-də sazişi imzalayan ölkənin ərazisində fəaliyyət göstərən xarici şirkətin korporativ vergilərə, eləcə də dividendlərə və gəlirlərə görə vergiyə cəlb olunması qadağan edilir. «ActionAid» mütəxəssislərinin rəyinə görə, bu, ən ziyanlı sazişlərdən-dir: «Həmin vergi sazişlərinin qlobal mənası inkişaf etməkdə olan ölkələrin böyük şirkətləri vergiyə cəlb etmək məsələsində əlini-qolunu bağlamaq deməkdir».

# Rusiyada aksiz dərəcələri artırılır

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin aksiz dərəcələrinin bu il aprelin 1-dən artırılması barədə qanunu təsdiqləyib. Yeni qanuna əsasən, avtomobil benzini, dizel yanacağı, texnoloji benzin və orta distilyatlara tətbiq olunan aksizlərin dərəcəsi artırılır.

Maliyyə Nazirliyinin proqnozlarına görə, aksiz dərəcələrinin yüksəlməsi ilə əlaqədar olaraq, ilin sonunadək ölkədə benzinin qiyməti 6,5% artacaq. Məsələn, beşinci dərəcəli benzinin bir tonu üçün aksiz hazırda 7530 rubl (156 manat) təşkil edirdisə, artımdan sonra bu göstərici 10.130 rubla (210 manata) çatacaq. Artırılmış tariflər 2016-cı ilin sonuna qədər saxlanılacaq. Hökumətin planına əsasən, 2017-ci ildə aksiz dərəcələri yenidən aşağı salınaraq 2015-ci il səviyyəsinə gətiriləcək.

# ABŞ alternativ enerji istehsalına güzəştlər edir

ABŞ-ın Energetika Nazirliyinin enerjinin bərpa olunan mənbələri üzrə milli laboratoriyasının (NREL) nəşr etdirdiyi bülletendə bildirilmişdir ki, bərpa olunan enerji üzrə bir sıra federal mənbələrə verilən vergi güzəştlərinin keçən ilin sonunda vergi kreditlərinin vaxtının beş il uzadılması külək və günəş enerjisindən istifadəyə başlamağı sürətləndirəcək və enerji obyektləri 2020-ci ilin əvvəlində işə düşəcək.

Qeyd edək ki, ABŞ-da vergi kreditləri biokütlə, geotermal və hidroenerji mənbələrə də tətbiq olunur, lakin bu enerji mənbələri üzrə güzəştlərin vaxtı 2016-cı ilin sonunda başa çatacaq.

# İtaliya yolayrıcında...

Son araşdırma zamanı tutulan vergilərin məbləği ilə bağlı İtaliya ilə Avropa İttifaqının göstəriciləri arasında maraqlı müqayisə aparılmışdır. İtaliyada fəaliyyət göstərən kiçik biznes assosiasiyasının araşdırma mərkəzinin apardığı hesablamaya əsasən, əgər bu ölkədə Avropa İttifaqının vergi dərəcələri və vergitutma qaydaları tətbiq olunsa, hər bir italiyalı ildə 557 avro (952 manat) pula qənaət etmiş olardı. Bu isə bütün ölkə üzrə 34 milyard avro (58,12 milyard manat) deməkdir.

Ona görə də ölkədə nüfuz sahibi olan assosiasiya İtaliyanın Avropa səviyyəsində ümumi maliyyə nazirliyi yaratmaq ideyasını dəstəkləyir. Təklifə görə, bu nazirlik avro zonasına daxil olan 19 ölkənin vergi sisteminin uyğunlaşdırılmasına məsul olacaq.

Qeyd edək ki, İtaliya Avropa İttifaqında vergi yükü üzrə (ÜDM-in 43,6%-i) beşinci yerdədir, avrozonada isə orta vergi yükü göstəricisi 41,5% təşkil edir. Hazırda ölkədə əsas vergilər əhəmiyyətli dərəcədə artmışdır. Hesablamalara görə, İtaliya vətəndaşları hər il Almaniya vətəndaşları ilə müqayisədə 1141avro (1950 manat), Hollandiya vətəndaşları ilə müqayisədə 1593 avro (2723 manat), İspaniya vətəndaşları ilə müqayisədə isə 2389 avro (4083 manat) artıq vergi ödəyirlər.

# Xəbər lenti

**Avropa İttifaqı** ilə Monako Knyazlığı arasında maliyyə şəffaflığına dair saziş imzalanmışdır. Bundan sonra Aİ-yə üzv ölkələr Monakoda bank hesabları olan vətəndaşlarının adlarını, ünvanlarını, VÖEN-lərini, təvəllüdlərini, eləcə də hesab balansı kimi digər maliyyə məlumatlarını əldə edə biləcəklər.

**Latviya**nın paytaxtı Riqa şəhərində uşaqlı ailələr üçün əmlak vergisinə güzəşt tətbiq olunub. Güzəştin məbləği biruşaqlı ailələr üçün 50%, ikiuşaqlı ailələr üçünsə 70% təşkil edir.

**Avropa** Yaşıllar Partiyası İsveçin IKEA şirkətini vergidən yayınmaqda ittiham edən hesabat açıqlamışdır. Hesabatda şirkətin son altı ildə 1 milyard avro məbləğində vergini ödəmədiyi göstərilir.

**Britaniya**nın «JKX Oil & Gas Plc» neft-qaz şirkəti vergiləri artırdığına görə, Ukrayna hökumətinə qarşı 270 milyon dollar məbləğində kompensasiya iddiası qaldıracağını bəyan etmişdir.

**Rusiya**nın kütləvi informasiya vasitələrinin məlumatına görə, «Sberbank» strukturları tərəfindən nəzarət olunan «DenizBank»a qarşı Türkiyə hökuməti tərəfindən təzyiq artırılmışdır. Lakin vergi polisinin ödənilməsini tələb etdiyi yığımlar «DenizBank»ın Fransa-Belçika kapitalı ilə fəaliyyət göstərən investisiya qrupu tərəfindən idarə olunduğu dövrə düşür.

# Vergi fırıldağına görə Neymarın vertolyotuna həbs qoyuldu

Müasir dünya futbolunda ən yüksək mövqelərdən birini tutan Braziliya millisinin və «Barselona» klubunun (İspaniya) hücumçusu Neymarın şəxsi vertolyotu öz ölkəsinin dövlət mülki aviasiya agentliyi tərəfindən vergi qaçaqçılığı üzrə açılmış təhqiqatın tərkib hissəsi kimi cinayət işinə cəlb edilmişdir. Vertolyotun dəyəri 3,8 milyon dollar dəyərində qiymətləndirilir.

Qalmaqalın yaranmasına səbəb budur ki, futbolçu öz əmlakını bəyan edərkən vertolyot üçün bəyannamə təqdim etməmişdir. Vertolyot hazırda Neymarın dondurulmuş aktivləri siyahısındadır. Bu siyahıya ulduz futbolçuya məxsus villa, yaxta və təyyarə də salınmışdır.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Rəssamlıqda kubizm cərəyanının nümayəndəsi; 2.Stolüstü oyun; 3.Kanadada çay; 4.Yalnız öz mənafeyini düşünən adama xas olan mənəvi keyfiyyət; 5.Azərbaycanın ilk balet rəqqasəsinin adı; 6.XVIII əsrdə adı Molla Pənah Vaqiflə bir sırada çəkilən Azərbaycan şairi; 9.Rusiyanın Smolensk və Kaluqa vilayətlərində çay; 13.Novruz bayramında məşhur personajlardan biri; 15.Kimyəvi element; 16.Respublikamızda rayon; 17.Alman-skandinav mifologiyasında su pərisi; 18.Sərinləşdirici içki; 20.Ən yüksək əyarlı qiymətli metal kütləsi; 21.Cənubi Amerikada çay.

**Soldan sağa:** 1.İspaniyada X-XVI əsrlərdə zadəgan, kavaleriyada hərbi xidmətdə olan şəxs; 5.ABŞ-ın Kanzas ştatında dairə; 7.Rus yazıçısı, dramaturq, teatr rejissoru və aktyor. «Master və Marqarita», «İvan Vasilyeviç peşəsini dəyişir» əsərlərinin müəllifi; 8.359-cu ildə Sasani dövləti və Roma arasında baş vermiş döyüş; 10.Xüsusi kompüter proqramı vasitəsilə təqdim olunan şəkil və ya qrafik təsvirləri; 11.Alman-skandinav mifologiyasında əsas qəhrəmanlardan biri; 12.Normativ akt; 14.Niderland hökuməti iqamətgahının yerləşdiyi şəhər; 19.Cənubi Amerika hindularının geydiyi ayaqqabı növü; 21.Fiqurlu konkisürmədə ən sadə tullanma; 22.Materikin dayaz su altındakı hissələri; 23.Həndəsi fiqur. Oturacağı çoxbucaqlı, qalan üzləri ortaq təpəyə malik üçbucaqlar olan çoxüzlü; 24.Qrammatik baxımdan qoşmaya aid olan köməkçi nitq hissəsi; 25.Mağaraların dibindən konus şəkildə əhəng, duz və ya gips əsaslı mineral törəmələr.



*«İvan Vasilyeviç peşəsini dəyişir» bədii filmindən epizod (1973)*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Şeytan; 2.Dinamit; 3.İdrak; 4.Sparta; 5.Çarıq; 6.Dekart *(Rene)*; 9.Miki; 13.Yoqa; 15.Atlanta; 16.Amitoz; 17.İnfant; 18.Paştet; 20.Çinar; 21.Harun. **Soldan sağa:** 1.Şadlinski *(Abbasqulu bəy)*; 5.Çad; 7.Yanardağ; 8.Ürək; 10.Aymak; 11.Triqqer; 12.Ştayn; 14.Milax; 19.Miçiqan; 21.Halva; 22.Tunc; 23.Patronat; 24.Zar; 25.İntendan.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 9000

## idman

# Dünya çempionatında tarixi nəticə



Londonda velosiped idmanının trek növü üzrə dünya çempionatına yekun vurulub. Yarış Azərbaycan yığma komandası üçün uğurlu sonluqla başa çatıb. Belə ki, millimizin üzvü Sergey Omelçenko Olimpiya növü olan keyrində 7-ci yeri tutmaqla dünya çempionatları tariximizdə ən yüksək nəticəyə imza atıb.

Reqlamentə əsasən, ilkin mərhələdə 7 idmançı arasında finiş xəttini 2-ci keçən velosipedçimiz birbaşa yarımfinala vəsiqə qazansa da, təəssüf ki, finalın 6 iştirakçısı sırasında yer almaq mümkün olmayıb. Bununla belə, Sergey Omelçenko 7-ci yer uğrunda mübarizədə digər 5 rəqibini qabaqlamağı bacarıb. Qeyd edək ki, dünya çempionatının keyrin növündə planetin 25 ən güclü idmançısı mübarizə aparıb.

Qadınlar arasında 200 metr məsafəyə sprint növündə çıxış edən yığma komandamızın digər üzvü Olqa İsmaylova isə 33 iştirakçı arasında 18-ci nəticə göstərib.

# «Synergy Baku»nun mövsümdə ilk uğuru



Azərbaycanın şose velosipedi üzrə «Synergy Baku» kontinental komandası 2016-cı il mövsümündə ilk uğurunu əldə edib. Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) Xorvatiyada keçirilən birgünlük «Porec Trophy» yürüşü komandamızın üzvü Matey Müqerlinin qələbəsilə başa çatıb.

Sayca 14-cü dəfə təşkil edilən yarışa Elçin Əsədov, Maksim Averin, Matiya Kvasina, Matey Müqerli, Yosip Rumaç və Yannis Tamuridisdən ibarət heyətlə qatılan «Synergy Baku»nun komanda işi uğurlu sonluqla nəticələnib. 156,5 km-lik məsafəni 3 saat 23 dəqiqə 25 saniyəyə qət edən Müqerli ən yaxın izləyicisini 1 saniyə qabaqlayıb və starta çıxan 192 velosipedçi arasında finiş xəttini birinci keçməklə «Porec Trophy»nin üçqat qalibi olub. Qeyd edək ki, hələ Sloveniyanın «Adria Mobil» komandasının heyətində çıxış edərkən Müqerli 2012 və 2013-cü illərdə də adıçəkilən yarışın qalibi olmuşdu. 2014-cü ildə isə bu yarışda «Synergy Baku» və Azərbaycanın Elit yığma komandasının üzvü, ölkəmizi Rio-2016 Yay Olimpiya Oyunlarında təmsil edəcək Maksim Averin çempionluq sevinci yaşamışdı.

# Mariya Stadnik beşqat Avropa çempionudur!

Martın 8-də Latviyanın paytaxtı Riqada güləş üzrə böyüklər arasında Avropa çempionatı start götürüb. Martın 13-dək davam edəcək yarışların ilk günündə 57 və 86 kq çəkidə sərbəst, 48 və 63 kq çəkidə qadın güləşçilər mübarizə aparıblar.

Qadın güləşi üzrə yığmamızın kapitanı Mariya Stadnik (48 kq) əvvəlcə Ukrayna təmsilçisi Oleksandra Kogutu, ardınca Rusiya təmsilçisi Valentina İslamovanı, yarımfinalda isə Bolqarıstandan Elitsa Yakonvanı tam üstünlüklə məğlub edərək finala yüksəlib. Qızıl medal uğrunda güləşçimizin rəqibi Rumıniya təmsilçisi Emilia Vuc olub. Rəqibinə heç bir şans verməyən Mariya Stadnik beşinci dəfə Avropa çempionu adına sahib olub. Xatırladaq ki, kapitanımız bu günədək 4 dəfə (2008, 2009, 2011, 2014) Avropa çempionu, ötən il isə ilk Avropa Oyunlarının qalibi olub.

# Azərbaycan güləşçiləri dünyanın ən güclüləri sırasında

Dünya Güləş Birliyi 2016-cı ilin fevralında keçirilən yarışların nəticəsinə əsasən, Avropa çempionatı öncəsi yunan-Roma, sərbəst və qadın güləşi üzrə yeni reytinq cədvəlini açıqlayıb. Sevindirici haldır ki, hər üç növdə siyahıya öz çəki dərəcələrində Azərbaycan güləşçiləri başçılıq edir.

Yunan-Roma güləşi üzrə Avropa Oyunlarının qızıl medalçısı, Las-Veqasda keçirilən dünya çempionatının qalibi Rəsul Çunayev reytinqdə ilk sırada, Rövşən Bayramov isə ikinci sırada qərarlaşıb. Reytinq sıralamasında mövqeyi dəyişməyən Elvin Mürsəliyev 6-cı, Sabah Şəriəti isə 4-cü sırada qərarlaşıb.

Sərbəst güləşçilərimizdən 11-i Dünya Güləş Birliyinin reytinq siyahısında yer alıb. Ən yaxşı göstərici ötən ilki mundialda ikinci çempionluğunu qazanan Hacı Əliyevə məxsusdur. O, öz çəkisində reytinqin birincisidir. Ötən ay heç bir yarışda iştirak etməyən Toğrul Əsgərov 5-ci, Xetaq Qazyumov 4-cü və Cəmaləddin Məhəmmədov 3-cü yerdə qərarlaşıblar.

Qadın güləşçilərin reytinq siyahısında 6 təmsilçimizin adı var. Son dünya çempionatının gümüş medalçısı Mariya Stadnik fevralda Kiyevdə keçirilən beynəlxalq turnirdə qalib gələrək reytinq siyahısında yenidən birinciliyə yüksəlib. Kiyevdə keçirilən beynəlxalq turnirdə qazandığı nəticə Anjela Doroqanın bir pillə yüksəlməsi (5-ci yer), Yuliya Ratkeviçin isə mövqeyini qoruması ilə (6-cı yer) nəticələnib.



## mozaika

# Kitablara əlvida?!

camiyyət

Yaponiya Təhsil Nazirliyi yanında Şura dərsliklərə münasibətdə siyasətinin əsas istiqamətinin uşaq təhsil müəssisələrində planşetlərin və digər rəqəmsal avadanlığın istifadəsi olacağı barədə qərar qəbul edib. Qərara əsasən, bu, 2020-ci ildən tətbiq olunacaq.

Şuradan bildiriblər ki, belə bir qərar rəqəmsal dərsliklərin video yazılardan və audio xidmətdən istifadəyə imkan yaratdığına görə qəbul edilib. Bu, şagirdlərə bir çox fənlərin, xüsusən də əcnəbi dillərin mənimsənilməsində faydalı ola bilər. Qərarın qəbul olunmasına baxmayaraq, Şuranın bəzi üzvləri ənənəvi çap materiallarından istifadənin saxlanmasına səs veriblər. Onlar bildiriblər ki, həmin məhsullar şagirdlərin yazı vərdişlərinin və təfəkkürünün inkişafında əvəzedilməzdir.



# Bir işıq saç!

ekologiya

«Yer saatı - 2016» kampaniyası Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi və GREEN BAKU Ekoloji Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilir. Nümayəndəlikdən bildiriblər ki, builki tədbir Bakıda martın 19-da saat 20:30-da «İqlim dəyişikliyinə bir işıq saç!» şüarı altında keçiriləcək.

«Yer saatı» kampaniyası ilk dəfə WWF tərəfindən 2007-ci ildə Avstraliyada keçirilib. Kampaniyanın məqsədi ictimaiyyətin diqqətini iqlim dəyişikliyinin yaradacağı fəsadlara yönəltməkdir. «Yer saatı» aksiyaları zamanı böyük şəhərlərdəki məşhur binaların fasad işıqları bir saatlıq söndürülür və bu rəmzi hərəkətlə insanları enerjiyə qənaət edilməsinə təşviq edirlər. Məlum olduğu kimi, elektrik enerjisinin alınması nəticəsində atmosferə buraxılan istixana qazları iqlim dəyişikliyinin başlıca səbəblərindən hesab olunur. Bununla əlaqədar, «Yer saatı» aksiyaları zamanı enerjidən davamlı istifadə xüsusi vurğulanır.




Hər il mart ayının son şənbə günü qeyd olunan «Yer saatı» kampaniyasına beynəlxalq ictimaiyyət tərəfindən diqqətin artması müşahidə edilir və bunun nəticəsi olaraq, 2015-ci ildə dünyanın 172 ölkəsinin 7000-dən çox şəhəri və bir milyarda yaxın insan bu kampaniyaya qoşulmuşdur.

# Əmir Teymur və onun sərkərdələri

araşdırma



Özbəkistan mətbuatının yazdığına görə, Rusiyanın Novosibirsk Dövlət Universitetinin mütəxəssisləri dünyada ilk dəfə olaraq Əmir Teymur fenomeni və onun 12 ən yaxşı sərkərdəsinin bioqrafiyasını ətraflı araşdırıblar.

Alimlər qrupunun rəhbəri Leonid Bobrov jurnalistlərə bildirib ki, Əmir Teymurun sərkərdələrini şərti olaraq 3 qrupa ayırmaq olar. Birinci qrupa böyük istedada malik sərkərdələri, ikinci pilləyə vəzifəyə görə sərkərdə olanları - buraya Əmir Teymurun silahdaşlarının törəmələri olan hərbçiləri aid etmək olar. Bunlar vəzifələrini atalarından miras kimi alanlardır. Ən nəhayət, üçüncü qrupa, necə deyərlər, «anadangəlmə sərkərdələr» daxildir ki, bunlar da Əmir Teymurun varisləri olan şəxslərdir. Onları şəxsən Əmir Teymur özü müharibələrə hazırlaşdırıb. Materialda bildirilir ki, Əmir Teymur və onun sərkərdələri haqda aparılan araşdırmalar 2016-2017-ci illərdə dərc olunacaq.

# Ağıl məşqləri

tədqiqat

Burada söhbət məşhur yumoristik səhnədəki «ağıl duası» ilə bağlı eyhamdan getmir. İnsanda yaranan ağıl kəmliyi ciddi xəstəlik sayılır. Ahıl insanlarda ağıl kəmliyi xəstəliyinin - demensiyanın artmasından narahat olan alimlər profilaktika kimi müntəzəm əqli yüklənməni tövsiyə edirlər. Bu baxımdan, yaşlı adamlara tapmacalar, krossvordlar, rebus və buna oxşar «ağıl üçün məşqlər» məsləhət görülür.

ABŞ-ın Mayo Klinikasının Tədqiqat və Müalicə Mərkəzinin alimləri əqli yüklənmənin beyin toxumalarında demensiyaya səbəb olan beta-amiloid zülalının toplanma sürətini azaltması fikrini irəli sürüblər. Lakin bu, hamıda deyil, ancaq şəkli dəyişmiş APoE4 geni daşıyıcılarında mümkündür. Mayo klinikasının əməkdaşları kompüter tomoqrafiyasının köməyi ilə yaşı 70-dən yuxarı və demensiya əlamətləri olmayan 393 amerikalının beyin toxumalarını müayinə ediblər. Qanın xüsusi analizi bu qrupda APoE4 geninin spesifik variantının daşıyıcısını tapmağa kömək edib. Könüllülər əmək qabiliyyəti yaşında hansı işlə məşğul olmaları, krossvorda maraqları və s. barədə xüsusi suallara cavab veriblər.



Lakin alimlərin fikrincə, əqli yüklənmə bütün yaşlı adamlara faydalıdır. Belə yüklənmələr demensiya ilə bağlı olmayan prosesləri, o cümlədən yaddaşın və məntiqi təfəkkürün pisləşməsi təhlükəsini azaldır.

**Müdriklər deyib ki...**

*«Ən böyük səhv özünün heç səhv etmədiyini düşünməkdir».*

*Tomas Karleyl (1795-1881)*

